16_27 IYUl-QARA.qxd 4/30/2026 8:34 PM Page 1


# UNİKAL

№16 (2296) 1 may 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az




# Avropanın ikiüzlü siyasəti ifşa olunur: Sülh prosesinə mane olmağın pərdəarxası...



Səh.3

## TƏBİB-in keçmiş rəhbərinə təftiş şoku

*Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) bir müddət öncə vəzifəsini itirən rəhbəri Vüqar Qurbanovun sərvəti və biznesi ilə bağlı iddiaların araşdırılmasına başlana bilər. Son günlər mediada və sosial şəbəkələrdə Qurbanovla bağlı yayılan yeni məlumatlar belə bir ehtimalı qüvvətləndirir. Həmin məlumatlarda qeyd edilir ki, TƏBİB-in keçmiş rəhbəri onun vəzifəsindən uzaqlaşdırılmasının ardınca Yeni Klinikanın direktoru postunu itirən Barat Yusibovla birlikdə səhiyyə sektorunda paralel biznes və təsir mexanizmi qurublar. Azmedia.az-ın yaydığı məlumata görə, "bu imperiya çoxistiqamətli və çoxqütblüdür"...*

Səh.8

## "Azərbaycan münasibətləri normallaşdırmaq üçün səmimi addımlar atır"



*Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin ermənistanlı həmkarı Mher Qriqoryanla keçirdiyi görüşün əhəmiyyətindən, Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası ilə bağlı hansı...*

Səh.4

## Sərhəd xəritəsi hazırlanacaq - Ermənistandakı masada nələr müzakirə olunub?




*Aprelin 29-da Ağverəndə keçirilən delimitasiya komissiyalarının 13-cü iclası Azərbaycan-Ermənistan münasibətlərində yeni mərhələnin konturlarını daha aydın göstərir. Görüşün növbəti şəkildə Azərbaycan və Ermənistan ərazilərində baş tutması və tərəflərin texniki sənədlər üzrə razılığa gəlməsi prosesin...*

Səh.9

## Uşaq ədəbiyyatının vətənpərvərliyin təbliğində rolu



*Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi müasir cəmiyyətin ən vacib məsələlərindən biridir. Qloballaşma şəraitində milli dəyərlərin qorunması, tarixə, dilə və mədəni irsə bağlılığın gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan gənclərin...*

Səh.11

16_27 IYUl-QARA.qxd 4/30/2026 8:34 PM Page 2



# "800 manatlıq köynək, 2 minlik idman dəsti almışam, baha deyil"



***"Futbol həvəskarıyam, amma heç vaxt pul qoymuram. Gedib toyda tər töküb pul qazanıram, onu niyə qumara qoyum? Heç vaxt halal puluma haram qatmaram. Amma bunu edən müğənnilər var. Mənim üçün futbol sadəcə bir həvəsdir".***

Axşam.az xəbər verir ki, bu sözləri Əməkdar artist Vasif Məhərrəmli "Zarafat bir yana" proqramında deyib. Müğənni futbola olan marağından danışıb.

V.Məhərrəmli bir müddət əvvəl tənqidə səbəb olan "Mazut iyi gələn adamla yanaşı oturmaram" fikrinə də aydınlıq gətirib: "Demişəm ki, təmizlik imandan gəlir. İnsan təmiz olmalıdır. Maşınımın yağını dəyişəndə ustaların yanında oturur, çaylarını içirəm. Deyirəm ki, işini bitirəndən sonra təmiz olmalısan, evinə də təmiz getməlisən. Demədim ki, fəhləni, kanalizasiya təmizləyəni bəyənmirəm. İnsan hansı sahədə çalışırsa çalışsın, təmiz olmalıdır. O mazut iyi verənlə niyə yanaşı oturmalıyam? Demirəm ki, onu bəyənmirəm. "Mazut" burada obrazlı ifadədir. Müəllim də ola bilərsən, amma səndən mazut iyi gələ bilər".

Müğənni bahalı brendlərdən alış-verişi haqda sualları cavablandırıb. O bildirib ki, bəyəndiyi geyimə çox pul pdəməyi sevir: "Son vaxtlar "Etro" brendindən alış-veriş edirəm. Orada köynəklər 800-1300, idman dəstləri 2000-2500, kostyum 3 min manatdan yüksəkdir. Kostyumlar, idman dəstləri, köynəklər alıram. Bu yaxınlarda idman dəsti almışam".

# Röya ilə Əkbərin trend olan mahnısı yutubdan silindi



***Xalq artisti Röya Ayxan və ifaçı Əkbər Əliyev tərəfindən ifa olunan "Ay qız" mahnısı yutub platformasından silinib.***

"Unikal" xəbər verir ki, buna səbəb mahnının plagiat olmasının iddia edilməsidir.

Xalq artistinin mətbuat xidmətindən saytımıza verilən məlumata görə, sözügedən əsər orijinal kontentdir və müəllif hüquqları tam şəkildə qanuni əsaslarla qorunur: "Mahnının "TikTok" və instaqram platformalarında sürətlə yayılması və trendə çevrilməsi dinləyicilər tərəfindən böyük maraqla qarşılandığını bir daha təsdiqləyir. Hazırda əsassız şikayət səbəbilə video yutub platformasından müvəqqəti olaraq silinib. Bununla əlaqədar tərəfimizdən rəsmi qaydada kontr-notifikasiya (əks-bildiriş) təqdim olunub. Qanunvericiliyə uyğun prosedurlara əsasən, yaxın günlərdə videonun bərpası gözlənilir. Yutubun qaydalarına uyğun olaraq, bu müddətin tamamlanmasını gözləmək məcburiyyətindəyik. Qeyd edirik ki, şikayət edən tərəfin bu əsər üzərində hər hansı hüquqi əsası yoxdur və biz bu mövqedə qətiyik".



# "Kiçik qızıma elçi çıxıblar" - Rəqsanə İsmayılova

***Müğənni Rəqsanə İsmayılova aparıcı-prodüserlə söhbəti zamanı diqqətçəkən açıqlama verib.***

Milli.Az-ın məlumatına görə, sənətçi bildirib ki, kiçik qızı Yağmura elçi düşülüb. Onun sözlərinə görə, ailəvi yaxın dostları vasitəsilə bu məsələ barədə onun həyat yoldaşına danışıblar və artıq tərəflər arasında ilkin razılaşmalar da müzakirə olunub.

İsmayılova qeyd edib ki, qızının işləməsinə qarşı tərəf də müsbət yanaşır. O həmçinin Yağmurun öz biznesini qurduğunu və gözəllik salonu açdığını vurğulayıb.

Sənətçinin dediyinə görə, məsələ ilə bağlı ailədə də məsləhətləşmələr aparılıb və qohum olmaq istəyən şəxslər sentyabr ayında nişan mərasiminin keçirilməsini istəyirlər.

# Məni ad gününə çağırmadılar"



***Müğənni Ramal İsrafilov Əməkdar incəsənət xadimi Vaqif Gərayzadənin ad günündə iştirak etməməsinin səbəbini açıqlayıb.***

Bakıvaxtı.az xəbər verir ki, ifaçı bu barədə "Gün ortası" proqramında danışıb. O, bildirib ki, tədbirin təşkilatçısı onu gecəyə dəvət etməyib:

"Xətrimə dəydi. Vaqif Gərayzadənin ad günü olub, təşkilatçı tələbə yoldaşımız idi. Hamını yığıb, məni yox. Bu da mənim qəlbimə dəyir. Elnur Məmmədovu və digər tələbə yoldaşlarımızı çağırıblar, amma məni dəvət etmədilər. Özümü yetim kimi hiss etdim. Qısqanıblar. Niyə çağırmırsınız?".

# "Qərarımı vermişəm, onun kimi görünməyəcəyəm"



***Əməkdar artist İlkin Əhmədov Məcnun rolunu artıq ifa edə bilmədiyini deyib.***

"Unikal" xəbər verir ki, xanəndə bununla bağlı özünə qadağa qoyduğunu bildirib. O, bu barədə "Qonaqcanlı" proqramında danışaraq obrazın çətinliyindən söz açıb: "Demişəm ki, 50 yaşımdan sonra Opera və Balet Teatrında bəzi rolları ifa edəcəyəm, bəzilərini isə yox. Məcnun rolunu artıq ifa edə bilmirəm. Bu, asan rol deyil, məsuliyyəti və ağırlığı böyükdür. Hər yaşda, hər kəs bu obrazı oynaya bilməz. Müəyyən vaxta qədər enerjim, gücüm var idi və ifa edirdim. İndi edə bilmirəm. Hazırda Mənsum İbrahimov bu obrazı gənclərdən daha yaxşı ifa edir. Bəziləri özündə bu gücü tapa bilmir, mən də onlardanam. Dörd böyük muğam tamaşasının əsas obrazlarını ifa etmişəm. Məsələn, 50 yaşdan sonra Məcnunun atasını, Kərəmin atasını oynaya bilərəm. Şeyx, müəllim obrazlarını ifa edərəm. Bundan sonra qərarımı vermişəm - Məcnun kimi görünməyəcəyəm". (Axşam.az)

16_27 IYUl-QARA.qxd 4/30/2026 8:34 PM Page 3





# Elçin Əmirbəyov İtaliyada görüşlər keçirdi

***Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov İtaliyaya baş tutmuş işgüzar səfəri çərçivəsində ölkənin bir sıra rəsmi şəxsləri ilə görüş keçirib.***

"Unikal" xəbər verir ki, E. Əmirbəyov ölkənin Baş nazirinin diplomatik müşaviri Fabrizio Saggio, xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Cirielli, Senatın sədr müavini Licia Ronzulli, Deputatlar Palatasının sədr müavini Giorgio Mule və Senatın Xarici əlaqələr və müdafiə komitəsinin sədri Maurizio Gasparri ilə görüşüb.

Səfər zamanı, həmçinin İtaliya-Azərbaycan parlamentlərarası dostluq qrupunun İtaliya tərəfdən üzvləri, eləcə də İtaliya Parlamentinin digər deputatlarının iştirakı ilə işçi nahar təşkil olunub.

Görüşlər zamanı Azərbaycan ilə İtaliya arasında çoxşaxəli strateji tərəfdaşlıq münasibətlərinin hazırkı vəziyyəti və gələcək inkişaf perspektivləri ətrafında geniş fikir mübadiləsi aparılıb. Siyasi dialoqun daha da gücləndirilməsi, enerji, nəqliyyat, müdafiə, kənd təsərrüfatı, yüksək texnologiyalar və digər perspektivli sahələrdə əməkdaşlığın genişləndirilməsi, habelə ikitərəfli gündəlikdə duran digər aktual məsələlər müzakirə olunub.

İtaliya tərəfi Azərbaycan ilə müxtəlif sahələrdə formalaşmış səmərəli və qarşılıqlı faydalı əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirərək, bu tərəfdaşlığın daha da dərinləşdirilməsində maraqlı olduğunu bildirib.

Azərbaycan və İtaliya arasında ən yüksək səviyyədə həyata keçirilən qarşılıqlı səfər və təmasların iki ölkə arasında çoxşaxəli strateji tərəfdaşlığın irəlilədilməsində oynadığı vacib rol vurğulanıb. Bu xüsusda İtaliya Respublikasının Baş naziri Gorgia Meloninin cari ilin may ayının əvvəlində Azərbaycana nəzərdə tutulan rəsmi səfərinin mühüm əhəmiyyət kəsb etdiyi diqqətə çatdırılıb və ikitərəfli münasibətlərin yeni mərhələyə yüksəldilməsinə əlavə təkan verəcəyinə əminlik ifadə olunub.

Danışıqlar zamanı parlamentlərarası əməkdaşlığın ikitərəfli münasibətlərin vacib tərkib hissələrindən biri olduğu vurğulanıb. Azərbaycan və İtaliya parlamentləri arasında həm ikitərəfli müstəvidə, həm də müvafiq beynəlxalq təşkilatlar çərçivəsində formalaşmış uğurlu əməkdaşlığın daha da genişləndirilməsi imkanları ətrafında fikir mübadiləsi aparılıb.

Görüşlərdə Azərbaycan ilə Avropa İttifaqı (Aİ) arasında münasibətlərə də toxunulub. İtaliya tərəfi Azərbaycanın Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında, eləcə də Orta Dəhlizin inkişafında, Avropa ilə Asiya arasında nəqliyyat-logistika əlaqələrinin gücləndirilməsində və Mərkəzi Asiyaya çıxış imkanlarının genişləndirilməsində oynadığı mühüm rolu xüsusi vurğulayıb. Hazırkı geosiyasi vəziyyət fonunda Azərbaycan tərəfindən Avropaya, o cümlədən İtaliyaya enerji məhsullarının ixracına marağın daha da artdığı diqqətə çatdırılıb.

Aİ ilə Azərbaycan arasında münasibətlərdə son zamanlar müşahidə olunan müsbət dinamika İtaliya tərəfindən alqışlanıb və tərəflərin maraqlarına cavab verən vacib sahələrdə əməkdaşlığın möhkəmləndirilməsinə dəstək ifadə olunub.

Səfər zamanı aparılmış danışıqlar çərçivəsində Elçin Əmirbəyov qarşı tərəfə Azərbaycan-Ermənistan münasibətlərində normallaşma prosesi, 8 avqust 2025-ci il tarixində Vaşinqtonda əldə olunmuş razılaşmalar, davamlı sülhün bərqərar olması istiqamətində növbəti addımlar və gözləntilər barədə ətraflı məlumat verib.

O, cari il ərzində Ermənistanda keçiriləcək parlament seçkilərinin və bu ölkənin yeni konstitusiyasının qəbul edilməsi üçün keçiriləcək referendumun nəticələrinin iki ölkə arasında sülh sazişinin imzalanması, beləliklə də regionda uzunmüddətli və dönməz sülhün təmin olunması baxımından vacib rol oynayacağını diqqətə çatdırıb. İtaliya tərəfi Azərbaycanın regionda sülh və sabitliyin təmin olunmasına yönəlmiş səylərini dəstəklədiyini vurğulayıb və sülh sazişinin yaxın zamanda imzalanacağına ümidvar olduğunu ifadə edib.

Elçin Əmirbəyov səfər çərçivəsində İtaliyanın nüfuzlu beyin mərkəzlərindən biri olan Beynəlxalq Təşkilatlar Cəmiyyətində (Italian Society for International Organizations) təşkil olunmuş dəyirmi masada çıxış edib, "La Repubblica" qəzetinə və "Formiche" nəşrinə müsahibələr verib.

# TƏBİB-in keçmiş rəhbərinə təftiş şoku

## Vüqar Qurbanovun sərvəti araşdırılmağa başlanır?!

***Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) bir müddət öncə vəzifəsini itirən rəhbəri Vüqar Qurbanovun sərvəti və biznesi ilə bağlı iddiaların araşdırılmasına başlana bilər. Son günlər mediada və sosial şəbəkələrdə Qurbanovla bağlı yayılan yeni məlumatlar belə bir ehtimalı qüvvətləndirir.***

Həmin məlumatlarda qeyd edilir ki, TƏBİB-in keçmiş rəhbəri onun vəzifəsindən uzaqlaşdırılmasının ardınca Yeni Klinikanın direktoru postunu itirən Barat Yusibovla birlikdə səhiyyə sektorunda paralel biznes və təsir mexanizmi qurublar. Azmedia.az-ın yaydığı məlumata görə, "bu imperiya çoxistiqamətli və çoxqütblüdür", belə ki, özəl tibbi müəssisələrin yaradılması və idarə olunması, tibbi avadanlıq və dərman idxalı sahəsində fəaliyyət, regionlarda invaziv kardiologiya və digər ixtisaslaşmış xidmətlərin təşkili, dövlət xəstəxanalarında laboratoriya və xidmət sahələrinin qurulması, ən əsası isə dövlət resurslarından şəxsi istifadə həmin imperiyanın önəmli istiqamətlərini təşkil edib.

İddialara görə, söhbət xüsusilə aşağıdakı tibb müəssisələrindən və layihələrindən gedir:

EGE Hospital, HP Güvən, "Olimp" Hospital, BMED ortopedik avadanlıqlar şirkəti, İnvasiv kardiologiya üzrə fəaliyyət göstərən qurumlar, dərman idxalı ilə məşğul olan şirkətlər, region xəstəxanalarında yaradıldığı deyilən kardiologiya mərkəzləri (Şirvan, Şəki və s.), dövlət xəstəxanalarında laboratoriya xidmətləri, lisensiyasız özəl laboratoriya xidmətləri və s.

"Siyahını xeyli böyütmək də olar. Eyni zamanda, Bakının müxtəlif ünvanlarında sənədləşməsi mübahisə doğuran tibbi obyektlərin fəaliyyəti ilə bağlı da məlumatlar gündəmə gətirilir" - iddialarda bu məqam da vurğulanır.

Xatırladaq ki, Barat Yusubov 2023-cü ildə Yeni Klinikanın direktoru vəzifəsinə təyinat alıb. Həmin vaxt bu təyinatla bağlı təqdimatı şəxsən Vüqar Qurbanovun verdiyi bildirilib.

O zaman 45 yaşında olan Barat Yusubov 2015-2018-ci illərdə "Medical Plaza Klinikası"nın baş məsləhətçisi, 2017-ci ildə "HB Güven Klinikası"nın baş məsləhətçisi, 2017-2019-cu illərdə "SonoMed" eşitmə mərkəzinin baş məsləhətçisi, 2018-ci ildən "EGE Hospital"ın Müşahidə Şurasının sədri kimi çalışıb. Elə Yeni Klinikaya da bu sədr vəzifəsindən gətirilib.

Göründüyü kimi, onun yüksək postlar tutduğu özəl klinikalar Vüqar Qurbanovla birgə qurduğu biznesin önəmli parçaları kimi təqdim edilən tibb müəssisələridir.

Digər tərəfdən, Qurbanovun vəzifəsini itirməsinin ardından TƏBİB-dəki kadr dəyişikliklərinin B.Yusubovdan yan keçməməsi də diqqət çəkir. O, işdən çıxarılma səbəbi ilə bağlı detalları açıqlamayıb. KİV-ə açıqlamasında "Məlumat doğrudur, artıq "Yeni Klinika"nın direktoru deyiləm" söyləməklə kifayətlənib.

Həmçinin o da maraqlıdır ki, Yusubov Vüqar Qurbanovla biznes münasibətləri barədə günlər öncədən mediada yer alan iddialara da indiyədək aydınlıq gətirməyib. Yəni bu iddiaları nə təsdiq, nə də təkzib edib.

Onu da deyək ki, 2022-ci ildə TƏBİB-in rəhbərliyinə gətirilən V.Qurbanov həmin vəzifəni təxminən 4 il icra edib. Onun fəaliyyət dövrü istər KİV-də, istərsə də mütəxəssislər tərəfindən uğursuz qiymətləndirilib. Əvəzində isə Qurbanov sözügedən müddətdə yetərincə böyük sərvət sahibinə çevrildiyi deyilir. Nəzərə alsaq ki, sabiq rəhbərin hələ bu postda olduğu zaman TƏBİB-də aparılan audit yoxlamaları və maliyyə təftişləri nəticəsində milyonlarla manatlıq vəsaitin mənimsənilməsi və ciddi büdcə pozuntularına yol verilməsi hallarının aşkarlandığı, bu pozuntuların birbaşa qurumun rəhbərliyi ilə əlaqəli olduğu və Vüqar Qurbanovun idarəçiliyindəki boşluqların dövlət büdcəsinə ağır zərbə vurduğu yönündə çoxsaylı iddialar var, belədə onun vəzifədə ikən varlandığı ilə bağlı xəbərlərə də təəccüblənməmək lazımdır.



Əslinə qalanda TƏBİB-in sabiq icraçı direktorunun sözügedən postu tutarkən özünə yaxın bir sıra kadrlarla səhiyyə sektorunun imkanlarından yararlanması, məsələn, şübhəli tenderlərə rəvac verməsi yönündə xəbərlər yeni də deyil. O, hələ TƏBİB rəhbəri olarkən belə xəbərlərə KİV-də mütəmadi rast gəlinirdi. Bu mənada onun vəzifəsindən uzaqlaşdırılmasının ardınca Barat Yusubov da daxil olmaqla bir çox mühüm post sahibinin də işsiz qalmasına təəccüblənməmək lazım deyil.

Bir sözlə, görünən odur ki, qarşıdakı dövrdə yalnız Qurbanovun zamanında TƏBİB-də yol verilən maliyyə maxinasiyaları, digər qanunsuzluq iddiaları ilə yanaşı, sabiq icraçı direktorun şəxsi sərvətinin qaynağı barədə də araşdırmaların başlanması istisna deyil. Hər bir halda bu yöndə yayılan xəbərlərin nə qədər doğru olub-olmadığını zaman göstərəcək, odur ki gözləyək...

***Toğrul Əliyev***

16_27 IYUl-QARA.qxd 4/30/2026 8:34 PM Page 4



# Sərhəd xəritəsi hazırlanacaq - Ermənistandakı masada nələr müzakirə olunub?




***Aprelin 29-da Ağverəndə keçirilən delimitasiya komissiyalarının 13-cü iclası Azərbaycan-Ermənistan münasibətlərində yeni mərhələnin konturlarını daha aydın göstərir.***

Görüşün növbəli şəkildə Azərbaycan və Ermənistan ərazilərində baş tutması  və tərəflərin texniki sənədlər üzrə razılığa gəlməsi prosesin institusional əsaslara keçdiyini nümayiş etdirir. Bu, əvvəlki dövrlərlə müqayisədə, siyasi bəyanatlardan konkret icra mexanizmlərinə keçidin göstəricisidir.

Razılaşdırılan üç əsas təlimat - ekspert qruplarının iş qaydası, delimitasiya xəritəsinin hazırlanması və sənədlərin tərtibatı və nəşri - sərhədin müəyyənləşdirilməsi prosesini hüquqi və texniki baxımdan sistemləşdirir. Bu isə təsadüfi deyil: delimitasiya artıq siyasi müzakirə predmetindən çıxaraq, idarə olunan texniki prosesə çevrilir.

Burada əsas məqam Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiya xəritəsinin hazırlanması haqqında təlimatdır.

**Azərbaycan üçün bu mərhələnin əsas əhəmiyyəti bir neçə istiqamətdə özünü göstərir:**

Birincisi, sərhədlərin hüquqi əsaslarla müəyyənləşdirilməsi post-münaqişə dövründə təhlükəsizlik risklərini minimuma endirir. Delimitasiya prosesi nə qədər konkret və sənədləşdirilmiş olarsa, gələcəkdə sərhəd insidentlərinin qarşısını almaq bir o qədər asan olacaq.

İkincisi, texniki razılaşmalar Azərbaycanın diplomatik mövqeyini gücləndirir. Çünki Bakı uzun müddətdir ki, sərhədlərin beynəlxalq hüquqa uyğun delimitasiyasını prioritet kimi irəli sürürdü. Hazırkı razılaşmalar həmin xəttin praktik nəticəsidir.

Üçüncüsü, iqtisadi komponentin paralel şəkildə gündəmə daxil edilməsi təsadüfi deyil. Ermənistan ərazisinə Azərbaycan vasitəsilə tranzitin həyata keçirilməsi və neft məhsullarının tədarükü regionda yeni iqtisadi reallığın formalaşdığını göstərir. Bu modeldə Azərbaycan yalnız siyasi deyil, həm də logistik və enerji mərkəzi kimi çıxış edir.

### Danışıqlarda Şahin Mustafayev formulu

Ermənistanla keçirilən danışıqlara Baş Nazirin müavini Şahin Mustafayevin rəhbərlik etməsi təsadüfi deyil. O, uzun illər ərzində dövlət ərkanında özünü doğruldub. Belə ki, Şahin Mustafayev Azərbaycan Respublikası ilə İran İslam Respublikası arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının sədri olub. Ş.Mustafayev həmin dövrdə Azərbaycan Respublikasının iqtisadiyyat və sənaye naziri idi.

Azərbaycan Respublikası Prezidentinin 11 may 2020-ci ildə imzaladığı Sərəncama əsasən, Baş Nazirin müavini Şahin Mustafayev sərhəd-nəzarət buraxılış məntəqələrinin fəaliyyətinin beynəlxalq standartlara uyğunlaşdırılması üzrə Komissiyanın sədri təyin edilib.

O, həmçinin 2022-ci ildən bəri Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyasının sədridir.

Ş.Mustafayev erməni dilində sərbəst danışır. Bir sözlə, ermənilərin dilindən yaxşı anlayır və dövlətin əsas siyasi güclərindən biridir. Buna görə də Azərbaycanın Ermənistanla dövlət sərhədi ilə bağlı məsələlər Şahin Mustafayevə etibar olunub.

### Cənubi Qafqazda sərhəd məsələləri

Cənubi Qafqazda sərhəd məsələlərinin həlli tarixən uzunmüddətli və konfliktli proses olub. Gürcüstan-Rusiya və ya Ermənistan-Gürcüstan sərhəd təcrübələri göstərir ki, delimitasiya illərlə uzana bilər. Bu kontekstdə Azərbaycan-Ermənistan xəttində texniki sənədlərin razılaşdırılması nisbətən sürətli irəliləyiş kimi qiymətləndirilə bilər.

Eyni zamanda, prosesin irəliləməsi regionda kənar aktorların təsir imkanlarını da məhdudlaşdırır. Sərhəd məsələlərinin ikitərəfli formatda həlli Azərbaycanın maraqlarına daha çox cavab verir, çünki bu, üçüncü tərəflərin siyasi manipulyasiya imkanlarını azaldır.

Tranzit daşımaların və enerji tədarükünün başlaması yeni iqtisadi münasibətlər modelinin ilkin əlamətləridir. Bu modelin əsas xüsusiyyəti qarşılıqlı asılılıqdır. Ermənistan üçün bu, iqtisadi blokadadan qismən çıxış imkanı yaradırsa, Azərbaycan üçün regionda iqtisadi təsir rıçaqlarının genişlənməsi deməkdir.

Delimitasiya prosesi mərhələli şəkildə tamamlanarsa, demarkasiya başlanacaq və paralel olaraq sülh sazişi də Ermənistandakı seçkilərdən sonra imzalanacaq. Bu halda Azərbaycan regionda sabitliyin əsas təminatçısına çevriləcək.

Ermənistan daxilində siyasi təzyiqlər və ya xarici təsirlər prosesi ləngidərsə, delimitasiyanın fraqmentar xarakter almasına səbəb ola bilər. Bu da qarşıdakı seçkilərdə Paşinyan rejiminin məğlubiyyəti ilə mümkündür.

Ümumiyyətlə, Ağverəndə keçirilən görüş göstərir ki, Azərbaycan-Ermənistan münasibətləri artıq yeni mərhələyə daxil olub. Qarşıdurmadan sonra tənzimlənən rəqabət və məhdud əməkdaşlıq modelinə keçid müşahidə olunur. Azərbaycan üçün əsas prioritet bu prosesi nəzarətdə saxlamaq, texniki razılaşmaları siyasi nəticələrə çevirmək və əldə olunan üstünlükləri uzunmüddətli regional təsirə transformasiya etməkdir.

Mövcud mərhələdə Bakı həm diplomatik, həm də iqtisadi alətlərdən effektiv istifadə etməklə Cənubi Qafqazın gələcək geosiyasi arxitekturasında aparıcı mövqeyini möhkəmləndirmək imkanına malikdir.

*Ağarza Elçinoğlu*



## Paşinyan Şahin Mustafayevdən danışdı

***Ermənistan və Azərbaycan Baş nazirlərinin müavinləri Mher Qriqoryan və Şahin Mustafayevin iki ölkəyə qarşılıqlı səfərləri tarixi əhəmiyyət kəsb edir.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistanın Baş naziri Nikol Paşinyan brifinq zamanı açıqlayıb.

Paşinyan Ermənistan hökumətinin iclasından sonra keçirilən brifinqdə Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayevin Ermənistana səfərindən danışıb: "Çox vacib bir hadisə baş verdi. İki ölkənin baş nazir müavinlərinin səfərlərini tarixi sülh prosesinin institusional məntiqinin bir hissəsi hesab edirəm. Bu mərhələyə çatdığımız üçün çox xoşbəxtəm".

Baş nazir vurğulayıb ki, Ermənistan və Azərbaycan arasında münasibətlər daim yaxşılaşdırılmalı və sülh tədricən möhkəmləndirilməlidir: "Normal münasibətlər, uzunmüddətli perspektivdə isə strateji, mehriban qonşuluq münasibətləri qurulmalıdır".

*Ağarza Elçinoğlu*

## "ABŞ "müharibə xərclərini ödəməkdə çətinlik çəkir" fikri sadəlövhlükdür" - İqtisadçı

***"Pentaqon deyir ki, ABŞ-ın İrana qarşı əməliyyatlarda xərci 25 milyard dollar olub. "Iran War Cost Tracker" portalı real xərclərin artıq 65 milyard dolları keçdiyini iddia edir. Lap maksimum variantı götürək, xərc 65 milyard dollar olsun. Bəs bu pul ABŞ üçün nə deməkdir?"***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. Onun sözlərinə görə, ABŞ-ın iqtisadiyyatı təxminən 32 trilyon dollardır.

"Bu il illik hərbi xərci 1 trilyon dolları ötür. 2027-ci ildə isə hərbi üçün 1,5 trilyon dollar ayırmağı düşünürlər. Bu kontekstdə 65 milyard dollar illik hərbi xərclərin təxminən 6-7%-i, ümumi iqtisadiyyatın isə cəmi 0,2%-dir. Odur ki, yerli və qlobal mediada "çox böyük xərc" kimi təqdim olunan bu məbləğ ABŞ kimi maliyyə imkanları olan ölkə üçün idarəolunan və absorb olunan xərcdir. 65 milyard dollar böyük rəqəmdir, amma ABŞ kimi böyük iqtisadiyyatlar üçün yox.

Bir az anlaşılan olsun deyə Azərbaycan manatı ölçüsündə izah edim ki, ABŞ illik hərbi xərcinin hər 100 manatından 6-7 manatını, ÜDM-in hər 100 manatından isə cəmi 20 qəpiyini İranla müharibə üçün xərcləyib. Buna görə bu dövlətin "müharibə xərclərini ödəməkdə çətinlik çəkir" kimi fikirləri tirajlamaq və ya düşünmək sadəlövhlükdür. Bir az da riyazi hesablasaq görərik ki, ABŞ iqtisadiyyatı 65 milyard dolları cəmi 18 saata yaradır. Yəni, söhbət bu dövlətdən gedir".

## Azərbaycandan tranzit keçməklə Ermənistana taxıl və gübrə göndərilib

***Azərbaycandan tranzit keçməklə Rusiyadan Ermənistana göndərilən taxıl yüklü vaqonlar Bakıdan yola salınıb.***

"Unikal" xəbər verir ki, ümumi çəkisi 279 ton olan 4 ədəd taxıl, çəkisi 203 ton olan 3 ədəd vaqondan ibarət gübrə yüklü qatar Ermənistan Respublikasına göndərilib. Qeyd edək ki, indiyədək Rusiyadan Ermənistana Azərbaycandan tranzit keçməklə 25 min tondan çox taxıl, 1600 tondan çox gübrə və 68 ton qarabaşaq göndərilib.

Xatırladaq ki, tranzitlə yanaşı, Azərbaycandan Ermənistana neft məhsullarının ixracı da davam edir. İndiyədək Azərbaycandan Ermənistana 8500 tondan çox dizel, 979 ton Aİ-92 benzini və 2955 ton Aİ-95 benzini ixrac olunub.

16_27 IYUl-QARA.qxd 4/30/2026 8:34 PM Page 5



# İlham Əliyev onu təltif etdi - Sərəncam



***Yuriy Petroviç Kamayev "Şöhrət" ordeni ilə təltif edilib.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

Sərəncamla o, Azərbaycan Respublikasının təhlükəsizlik orqanlarında uzunmüddətli səmərəli fəaliyyətinə və vəzifə borcunu yüksək peşəkarlıqla yerinə yetirdiyinə təltif edilib.

# Prezident Azərbaycan idmançılarına qarşı ədalətsizlikdən danışdı



***Prezident İlham Əliyev Avropa çempionatında komanda hesabında çempion olan güləşçilər və onların məşqçiləri ilə görüşündə beynəlxalq yarışlarda idmançılarımıza qarşı ədalətsizliklərdən danışıb.***

"Unikal" xəbər verir ki, dövlətimizin başçısı bununla bağlı deyib: "Maraqlıdır, bir qayda olaraq Avropa yarışlarında Azərbaycan idmançılarına qarşı ədalətsizlik dünya çempionatlarına nisbətən daha çox olur. Yəqin ki, Avropada heç də hamı Azərbaycanın Avropa çempionatlarında iştirak etməsinə və təkcə iştirakına deyil, həm də bütün Avropa ölkələrinə qalib gəlməsinə sevinmir".

# Uşaqların I sinfə qəbulu başlayır



***Mayın 6-dan 2026-2027-ci tədris ili üzrə ümumi təhsil müəssisələrinin birinci siniflərinə şagird qəbuluna start verilir.***

Bu barədə "Unikal"a Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən məlumat verilib.

Bildirilib ki, qəbul prosesi www.mektebeqebul.edu.az portalı vasitəsilə aparılacaq. Uşaqların birinci sinfə elektron qəbulu ölkənin bütün şəhər və rayonlarının ümumi təhsil müəssisələrini əhatə edir.

Qeyd edək ki, bu il Azərbaycan bölməsi üzrə 81 minə yaxın uşaq məktəbəhazırlıq qrupundan avtomatik olaraq I sinfə keçirilib: "Diqqətə çatdırılır ki, birinci sinfə qeydiyyat zamanı uşaqların şəxsiyyət vəsiqəsinin olması mütləqdir. Uşaqların məktəbə qəbulunda hər bir valideyn üçün əlçatanlığın təmin edilməsi əsas hədəflərdəndir".

Baş redaktor:
Zaur Əhməd

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2000

# Bu avtomobillər İçərişəhərə buraxılmayacaq

***Bu gündən etibarən qeyri-rezident avtomobillərin İçərişəhərə girişi və çıxışı müvəqqəti olaraq dayandırılacaq.***

"Unikal" xəbər verir ki, bu barədə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi məlumat yayıb.

Bildirilib ki, Bakıda keçiriləcək Beynəlxalq Xalça Festivalı ilə əlaqədar olaraq İçərişəhər ərazisində nəqliyyatın hərəkətinə müvəqqəti məhdudiyyətlər tətbiq ediləcək. Məhdudiyyət mayın 3-ə qədər davam edəcək.

# Dövlət komissiyasının iclası keçirildi: Qurumlararası İşçi Qrupu yaradılacaq

***Avropa İttifaqının Sərhəddə Karbon Tənzimlənməsi Mexanizmi, "İqlim haqqında" Azərbaycan Respublikasının Qanunu və "Uzunmüddətli Aşağı Karbonlu İnkişaf Strategiyası" layihələrinin təkmilləşdirilməsi məqsədilə Qurumlararası İşçi Qrupu yaradılır.***



"Unikal" xəbər verir ki, bu barədə İqlim Dəyişmələri üzrə Dövlət Komissiyasının iclasında bildirilib. Baş nazirin müavini, Dövlət Komissiyasının sədri Samir Şərifov Komissiyanın iclasını açaraq bildirib ki, Azərbaycan 1995-ci ildə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına qoşulmaqla qlobal iqlim çağırışlarına qarşı birgə mübarizədə fəal iştirak etməyə başlayıb.

Ölkə sonrakı dövrdə Paris Sazişi çərçivəsində götürdüyü öhdəliklərə sadiq qalaraq, istixana qazı emissiyalarının azaldılması istiqamətində daha iddialı məqsədlər müəyyən etmiş və üçüncü Milli Müəyyən Edilmiş Töhfə (NDC) sənədində 1990-cı il ilə müqayisədə 2035-ci ilədək emissiyaların 40 faiz azaldılmasını əsas prioritet kimi təsbit edib. Bu yanaşma Azərbaycanın aşağı karbonlu inkişaf modelinə keçid və iqlim dəyişmələrinin təsirlərinin minimuma endirilməsi istiqamətində ardıcıl siyasət apardığını nümayiş etdirir.

Qeyd edilib ki, 2024-cü il 11-22 noyabr tarixlərində Bakıda böyük uğurla keçirilmiş COP29 konfransı həllini gözləyən bir çox məsələ üzrə mühüm və tarixi qərarlarla yadda qalıb. Qlobal iqlim dəyişmələrinin fəsadlarına qarşı dünya ölkələrinin böyük əksəriyyətinin nümayiş etdirdiyi birgə səylərə Azərbaycan öz töhfəsini vermişdir. Məhz Bakıda inkişaf etməkdə olan ölkələrin əsas gözləntisi - "Yeni Kollektiv Kəmiyyət Hədəfi" üzrə konsensusun əldə olunmasına nail olunmuşdur. Bakıda qəbul edilən qərara əsasən, 2035-ci ilə qədər bütün dövlət və özəl mənbələrdən inkişaf etməkdə olan ölkələrə yönəldilən iqlim maliyyəsinin illik hədəfi 1,3 trilyon ABŞ dolları səviyyəsində müəyyən edilib.

Komissiyanın iclasında Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən "İqlim haqqında" Azərbaycan Respublikasının Qanun layihəsi, habelə "Uzunmüddətli Aşağı Karbonlu İnkişaf Strategiyası"nın layihəsi barədə, İqtisadiyyat Nazirliyi tərəfindən isə Avropa İttifaqının Karbon Sərhəd Tənzimləmə Mexanizmi (CBAM) və onun mümkün iqtisadi təsirləri barədə təqdimatlar edilmiş və həmin təqdimatların ətrafında müzakirələr aparılmışdır.

Dövlət Komissiyasının iclasında çıxış edən Azərbaycan Prezidentinin iqlim məsələləri üzrə nümayəndəsi Muxtar Babayev bildirib ki, ölkənin Uzunmüddətli Aşağı Karbonlu İnkişaf Strategiyası layihəsinin (LTS) yekunlaşdırılması və qısa müddətdə təsdiqə təqdim olunması vacibdir.

O öz çıxışında vurğulayıb ki, Avropa İttifaqının Sərhəddə Karbon Tənzimlənməsi Mexanizmi idxal olunan məhsullar üzrə karbon intensivliyinin nəzərə alınması ilə rəqabət şəraitinin bərabərləşdirilməsi nəzərdə tutulur. Bu baxımdan milli iqlim siyasətinin gücləndirilməsi ölkənin ixrac potensialının qorunması və sənayenin modernizasiyası üçün mühüm əhəmiyyət daşıyır.

Bununla yanaşı, Xarici İşlər Nazirliyi tərəfindən Komissiya üzvləri 2025-ci ilin noyabrında Braziliyanın Belem şəhərində keçirilmiş BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 30-cu sessiyasının (COP30) nəticələri və Azərbaycan tərəfindən iqlim dəyişmələri ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər barədə məlumatlandırılıb. Eyni zamanda, 2026-cı il 9-20 noyabr tarixlərində Türkiyənin Antalya şəhərində keçiriləcək COP31 sessiyasına hazırlıq işlərinin aidiyyəti qurumlar tərəfindən vaxtında başlanmasının zəruriliyi vurğulanıb.

İclasın yekununda Dövlət Komissiyasının sədri Samir Şərifov tərəfindən qarşıdan gələn BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyasına (COP31) hazırlıqla bağlı tədbirlər planının hazırlanaraq qısa müddətdə Komissiyaya təqdim olunması, eləcə də Avropa İttifaqının Sərhəddə Karbon Tənzimlənməsi Mexanizmi, "İqlim haqqında" Azərbaycan Respublikasının Qanunu və "Uzunmüddətli Aşağı Karbonlu İnkişaf Strategiyası" layihələrinin təkmilləşdirilməsi məqsədilə Qurumlararası İşçi Qrupunun yaradılması barədə qərarlar qəbul edilib.

# Əli Əsədov bu nazirliyin kollegiyasının tərkibini dəyişdi

***Azərbaycan Maliyyə Nazirliyinin kollegiyasının tərkibinə dəyişiklik edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb. Qərara əsasən, Maliyyə Nazirliyinin kollegiya üzvlərinin sayı 15 nəfərdən ibarət müəyyənləşdirilib və aşağıdakı tərkibdə təsdiq edilib:

Kollegiyanın sədri

Azərbaycan Respublikasının maliyyə naziri

Kollegiyanın üzvləri:

Azərbaycan Respublikası maliyyə nazirinin birinci müavini

Azərbaycan Respublikası maliyyə nazirinin müavinləri

Naxçıvan Muxtar Respublikasının maliyyə naziri



Azərbaycan Respublikası Maliyyə Nazirliyi Aparatının rəhbəri

Azərbaycan Respublikası Maliyyə Nazirliyi Aparatının rəhbərinin müavinləri

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin rəisi

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Xəzinədarlıq Agentliyinin direktoru

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Borcunun və Maliyyə Öhdəliklərinin İdarə Edilməsi Agentliyinin direktoru

Azərbaycan Respublikasının Maliyyə Nazirliyi yanında Dövlət Müəssisələrinin Monitorinqi Agentliyinin direktoru

## ELAN

**Kazımova Gülər Asif qızına Yeni Azərbaycan Partiyasının Sumqayıt şəhər təşkilatı tərəfindən verilmiş üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

# Avropanın ikiüzlü siyasəti ifşa olunur: Sülh prosesinə mane olmağın pərdəarxası...

***Rəsmi Bakı Avropa Parlamentinin Azərbaycana qarşı qərəzli mövqeyinə cavab olaraq bu qurumla münasibətləri dayandıra bilər. İndiyədək onsuz da Avropa Parlamenti ilə təmasları dayandırmış Azərbaycan, bu qurumla bütün münasibətlərin kəsilməsi haqda rəsmi qərar qəbul edə bilər və hazırda bu məsələ müzakirə mövzusudur.***

Xatırladaq ki, Avropa Parlamentində müzakirəyə çıxarılmış "Ermənistanda demokratik dayanıqlığın dəstəklənməsi" adlı qətnamə layihəsi nominal olaraq Ermənistana dəstək kimi təqdim olunsa da, bir sıra bəndlər birbaşa Azərbaycana qarşı əsassız ittiham və tələblər ehtiva edir.

BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinin sabiq prokuroru, Azərbaycana qarşı qərəzi və az qala düşmənçiliyi ilə tanınan Luis Okamponun qalmaqallı videosu üzə çıxıb.

"Unikal" "Minval Politika"ya istinadən məqaləni təqdim edir: "Avropa siyasətində rəzillik davam edir. Minval Politika-nın əldə etdiyi sensasiyalı video görüntülər Avropa qurumlarında erməni lobbisinin fəallığının və Avropa İttifaqının yüksək rəhbərliyində korrupsiyanın hansı həddə çatdığını tam çılpaqlığı ilə göstərir. Söhbət BMT-nin Beynəlxalq Ədalət Məhkəməsinin sabiq prokuroru Luis Ocampo və onun oğlu Tomasın əks olunduğu video görüntülərdən gedir. Onların hər ikisi öz məqsədləri və bu məqsədlərə çatmaq üçün istifadə etdikləri alətlər barədə çox açıq və çılpaqlığı ilə danışırlar. Əvvəlcə gəlin görək Luis Okampo kimdi? Azərbaycan auditoriyasına onu xüsusi tanıtmağa ehtiyac duymuruq. Argentina vətəndaşı, prokuror vəzifəsini böyük qalmaqalla tərk edən bu şəxs son illər pullu erməni lobbiçisinə çevrilib. Bu şəxs yeni sponsorlarının sifarişlərini yerinə yetirmək üçün hər şeyə hazırdır - açıq-aydın feyklər yaymağa da, yalanlar danışmağa da, ksenofobiya və islamofobiya üzərindən manipulyasiyalara da. Onun bu sar fon der Lyayenə təzyiq göstərə, beləliklə Avropa siyasətini formalaşdıra bilərəm".

"Unikal"a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri, deputat Səməd Seyidov deyib ki, sirkə nə qədər tünd olursa, öz qabını çatladır. Onun sözlərinə görə, bunlar o qədər Azərbaycana qarşı korrupsiyaya uğramış cinayətlər törədiblər ki, artıq bunu bütün dünya açıq şəkildə görməyə başlayıb. O bildirib ki, burada söhbət yalnız bunların əməllərindən getmir: "Bunlar cinayət əməllərinə başqalarını da cəlb ediblər. Onları da həmin rüşvətxorlar kimi Azərbaycana qarşı fəaliyyətə başlamışlar. Borrel elə birbaşa bunun əyani sübutudur. Bu məsələ Borellə məhdudlaşmır. Avropa Parlamentinin içərisində belə şəxslərin sayı az deyil. Bu cür şəxslərin Azərbaycana qarşı qərəzli fəaliyyəti nəticəsində Avropa Parlamentində 13 qətnamə qəbul ediblər. Sonuncu qəbul olunmuş qətnamə Ermənistanda keçiriləcək seçkilərlə bağlıdır.

utanc verən fəaliyyəti haqda biz çox danışmışıq.

Lakin indi istefada olan prokuror ətrafındakı qalmaqal yeni rənglər almağa başlayır. Okamponun oğlu söhbət zamanı açıq şəkildə məqsədlərini açıqlayır: "Bizim nail olmalı olduğumuz şey - Paşinyanı, yəni baş naziri uzaqlaşdırmaqdır".

Daha maraqlısı isə Luis Okamponun özünün açıqlamalarıdır. Videodan da göründüyü kimi, o çəkinmədən bildirir: "Əgər belə işlərlə məşğul olan bir şirkətim varsa, bunu maya dəyərinə edə bilərik. Məsələn, hazırda mənim komandamda əvvəllər Avropa Parlamentinin üzvü olmuş çox bacarıqlı bir adam var. O, hüquqi müşavir olub..." Həmsöhbət dəqiqləşdirir: "Borrel?" Okampo isə heç bir tərəddüd etmədən cavab verir: "Bəli, elə həmin Borrel. Bu adam indi mənim üçün Avropa Parlamentində işləyir. Mən orada çıxış edə, suallar qaldıra, onları yönləndirə və komis-

Onun 12 və 13-cü bəndinə yenə də Azərbaycanı daxil ediblər. Azərbaycana qarşı ağlasığmaz ittihamlar ittihamlar irəli sürüblər. Ondan sonra sülh istəyirlər. Bunların məqsədi sülhü dağıtmaqdır. Bu, sülhü əksinə regiondan uzaq saxlamaqdır. Məqsəd bu istiqamətdə fəaliyyət göstərərək, regionda xaos və çaxnaşma yaratmaqdır. Onla özlərini ifşa edərək öz cinayətlərini demokratiya, qanunun aliliyi, insan hüquqları libasına geyinmiş tərzdə təqdim etmişdilər. Təqdimat bu şəkildə edildiyinə görə bu dəyərləri də ucuzlaşdırdılar. Bununla demokratiyaya, insan haqlarına və qanunun aliliyinə Avropanın içərisində zərbə vurdular".

Komitə sədri bildirib ki, bugünkü Avropanın krizis, çətin və ağlasığmaz problemlər içərisində olması ona görədir ki, özləri oturduqları budağı kəsiblər: "İndi elə bir quyuya düşüblər ki, oradan çıxmaq çətin məsələdir. Bir əli çalışır bu münasibətləri düzəltsin, o biri əli isə həmin o korrupsionerlərlə əlaqəni kəsə bilmir. Biz yüksək səviyyədə Avropa Birliyi ilə əlaqələrimizi qururuq. 16 Avropa ölkəsinə qaz və neft ixrac edirik. Bu çox böyük rəqəmdir. Biz Avropanın enerji təhlükəsizliyini təmin edirik. Bunu həyata keçirdiyimiz halda həmin strukturun başqa qolu, yəni, Avropa Parlamenti tamamilə ağlasığmaz işlər görür. Avropanın maraqlarına zidd olan hərəkətlər edir. Burada ən böyük zərbə Avropanın özünə vurulur. Bütün Avropa böyük iqtisadi, siyasi və logistik təhlükə altında qalır.



Hərbi ekspert Ədalət Verdiyev isə bildirib ki, Avropa Parlamenti və digər təsisatlar ilk dəfə deyil ki, belə bir davranış sərgiləyir. "Azərbaycan mediası dəfələrlə Avropa Parlamenti, Avropa Komissiyası və Belçika hökumətinə Borrell, Okampo və digərlərinin mümkün korrupsiya sxemlərini araşdırmağı təklif edib. Amma bu təkliflərə reaksiya verilməyib. Bu dəfə Okampo öz dili ilə Borrell vasitəsilə korrupsiya faktlarını etiraf edir", - deyən ekspert bildirib ki, hədəf Ermənistanın Baş naziri Nikol Pasinyandır: "Ermənistan mediası hibrid təhdidlərə qarşı mübarizə aparmaq üçün bu məsələnin təfərrüatlarını ölkə daxilində araşdırmalıdır. Okampo, onu maliyyələşdirən erməni lobbisi və ondan rüşvət alan Avropa siyasətçilərini əhatə edən geniş bir cinayətkar şəbəkə Avropanın mərkəzində aşkar şəkildə fəaliyyət göstərir. Bu fəaliyyət əvvəllər Azərbaycana qarşı idi, indi isə Ermənistan hədəfdədir. Bakı bu hücumlara vərdiş edib, İrəvan isə maksimum ayıq və sayıq olmalıdır. Avropada Okampo və onun ətrafındakı korrupsiometr qüvvələr sülh prosesini pozmaq və vəziyyəti nəzarətli qeyri-sabitlik ssenarisinə qaytarmaq üçün həm Ermənistanda, həm də onun keçmiş müttəfiqləri ilə yaxından əməkdaşlıq edir".

***Anar Kəlbiyev***



# Ərdoğan Ermənistana dəvət olundu

***Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Avropa Siyasi Birliyinin (ASP) İrəvanda keçiriləcək iclasına dəvət olunub.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan mətbuatı yazıb. Bu təşkilat Avropa ölkələri arasında strateji yaxınlaşma, əməkdaşlıq, dialoq və koordinasiyanı təşviq etmək üçün yaradılıb. Görüş mayın 4-də Ermənistanın paytaxtı İrəvanda keçiriləcək.

"Gələcəyin Qurulması: Avropada Birlik və Dözümlülük" adlı görüşə Avropa Şurasının prezidenti Antonio Kosta və Ermənistanın baş naziri Nikol Paşinyan həmsədrlik edəcək.

Türkiyənin 6 oktyabr 2022-ci ildə Praqada (Çexiya) keçirilən ilk zirvə toplantısında iştirak etdiyi vurğulanır. Ərdoğan həmçinin 7 noyabr 2024-cü ildə Budapeştdə (Macarıstan) və 16 may 2025-ci ildə Tiranada (Albaniya) keçirilən görüşlərdə iştirak edib. Qeyd olunur ki, o, həmçinin 2023-cü ildə İspaniya və Moldovada, 2024-cü ildə Böyük Britaniyada və 2025-ci ildə Danimarkada keçirilən görüşlərə dəvət olunmuşdu, lakin o, həmin görüşlərdə iştirak etməyib.

Ərdoğanın İrəvan görüşündə iştirak edib-etməyəcəyi ilə bağlı Türkiyədən hələlik rəsmi açıqlama verilməyib. Ərdoğan İrəvan sammitində iştirak etməsə, Türkiyə orada təmsil olunmayacaq. Çünki qaydalara görə, yalnız dövlət və hökumət başçıları iştirak edə bilər. Nazirlər səviyyəsində və ya daha aşağı səviyyədə təmsil olunmağa icazə verilmir.

***Ağarza Elçinoğlu***

# "Təhsilin ən vacib iştirakçısı uşaqlardır" - Emin Əmrullayev

***Təhsilin mərkəzi, ən vacib iştirakçısı uşaqlardır. Yəni təhsil uşaqlar üçündür və onlar haqqındadır. Ən vacibi isə uşaqların öyrənməsi ilə bağlıdır. Digər maraqlı tərəflər uşaqların həyatını, təhsilini daha yaxşı etmək üçün əllərindən gələni etməlidirlər.***



"Unikal" xəbər verir ki, bu sözləri "Dayanıqlı inkişaf: Ailə, qadın və uşaq siyasəti" mövzusunda keçirilən konfransda təhsil naziri Emin Əmrullayev deyib.

O bildirib ki, insan inkişafının ilkin mərhələsi olan uşaqlığın inkişafı yalnız təhsil müəssisələrinin deyil, bütün cəmiyyətin vacib bir hissəsidir. Burada qarşılıqlı əlaqəli işin qurulması olduqca vacibdir. Bu işin mahiyyəti uşağı prosesin mərkəzində yerləşdirib, onun ətrafında və onun üçün müzakirələr aparmaqdır.

16_27 IYUl-QARA.qxd 4/30/2026 8:34 PM Page 7



# Lətif Kərimovun 120 illiyi qeyd ediləcək



***Azərbaycan təsviri sənətinin böyük ustası, görkəmli xalçaşünas, pedaqoq və sənətşünas alim, SSRİ Dövlət mükafatı laureatı, Xalq rəssamı Lətif Hüseyn oğlu Kərimovun 120 illiyi qeyd olunacaq.***

"Unikal" xəbər verir ki, bu barədə Prezident İlham Əliyev Sərəncam imzalayıb.

2026-cı ilin noyabr ayında Azərbaycan təsviri sənətinin böyük ustası, görkəmli xalçaşünas, pedaqoq və sənətşünas alim, SSRİ Dövlət mükafatı laureatı, Xalq rəssamı Lətif Hüseyn oğlu Kərimovun 120 illiyi tamam olur.

Dünya mədəni irs xəzinəsində şərəfli mövqeyə malik Azərbaycan xalça mədəniyyətinin hazırkı inkişaf səviyyəsinə yüksəlməsində Lətif Kərimovun təqdirəlayiq xidmətləri vardır. Onun eskizləri əsasında toxunmuş xeyli sayda süjetli, portret xalçalar və monumental xalılar milli xalçaçılığın parlaq ənənələrini özündə yaşadan misilsiz sənət nümunələridir. Fitri istedadla yaradılan və naxışlarının ifadəliliyi, bitkin üslubu ilə seçilən dərin koloritli əsərləri sənətkara dövrün məşhur xalça ustalarından biri olaraq xüsusi şöhrət qazandırmışdır. Lətif Kərimov Azərbaycan xalçalarının ornamental, kompozisiya xüsusiyyətlərini müəyyənləşdirmiş və mükəmməl sistemli təsnifatını işləyib hazırlamışdır. Xalça sənətinin beynəlxalq miqyasda mahir bilicisi kimi tanınmış alimin bu istiqamətdə apardığı fundamental tədqiqatlar indi də ən çox istinad olunan mötəbər mənbələrdəndir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalq tətbiqi sənətinin inkişafı, tədqiqi və təbliği işinə dəyərli töhfələr vermiş görkəmli xalça rəssamı Lətif Kərimovun 120 illiyinin qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası Xalq rəssamı Lətif Kərimovun 120 illiyi ilə bağlı tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

# Bu qaydalar təsdiqləndi

***"Dövlət orqanları (qurumları) tərəfindən tətbiq olunan rəqəmsal həllərin sahə üzrə effektivliyinin test rejimində qiymətləndirilməsi, habelə dövlət orqanları (qurumları) tərəfindən təşkil olunan elektron xidmətlərin ilkin mərhələdə məqsədəuyğunluğunun müəyyən edilməsi üçün tənzimləyici pilot layihələrin həyata keçirilməsi Qaydaları" təsdiq edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı Prezident İlham Əliyev Fərman imzalayıb.

Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etməlidir.

# "Ailədə anaların və qızların təhsili olduqca vacibdir" - Nazir



***Cəmiyyətimizdə yalnız təlim, imtahan nəticələri deyil, həmçinin şagirdlərin tərbiyəsi, onların psixoloji, emosional inkişafı da olduqca vacib müzakirə mövzularından biri olmalıdır.***

"Unikal" xəbər verir ki, bu sözləri "Dayanıqlı inkişaf: Ailə, qadın və uşaq siyasəti" mövzusunda keçirilən konfransda elm və təhsil naziri Emin Əmrullayev deyib.

O, həmçinin bildirib ki, ailədə qadınların, xüsusilə anaların və qızların təhsili olduqca vacibdir. Bir çox hallarda bugünkü qızların təhsili növbəti nəsillərdə, onilliklərdə təhsil siyasətini müəyyənləşdirən və onun keyfiyyətinə təsir edən amildir. Təhsilli anaların sayının artması son nəticədə, təbii ki, təhsil nailiyyətlərinin də artması deməkdir.

# "Azərbaycan münasibətləri normallaşdırmaq üçün səmimi addımlar atır"

## Aydın Mirzəzadə: "Əgər səmimi münasibət olacaqsa, bu gün dayandığımız yerdən davam edəcəyik"

***Milli Məclisin deputatı Aydın Mirzəzadə "Unikal"a müsahibə verib. O, Azərbaycan Respublikasının Baş nazirinin müavini Şahin Mustafayevin ermənistanlı həmkarı Mher Qriqoryanla keçirdiyi görüşün əhəmiyyətindən, Azərbaycanla Ermənistan arasında dövlət sərhədinin delimitasiyası ilə bağlı hansı addımların atılacağından və digər məsələlərdən danışıb.***

***-Aydın müəllim, aprelin 29-da Ermənistanda Baş nazirin müavini Şahin Mustafayevin və Ermənistan Respublikasının Baş nazirinin müavini Mher Qriqoryanın sədrliyi ilə Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında dövlət sərhədinin delimitasiyası üzrə Dövlət Komissiyası və Ermənistan Respublikası ilə Azərbaycan Respublikası arasında dövlət sərhədinin delimitasiyası və sərhəd təhlükəsizliyi məsələləri üzrə Komissiyanın on üçüncü iclası keçirilib. Bu görüşün əhəmiyyətini necə qiymətləndirirsiz?***

-Bu görüş Azərbaycanın Ermənistanla münasibətləri normallaşdırmaq üçün səmimi münasibətini göstərir. Azərbaycan Ermənistanla normal qonşuluq münasibətləri qurmaq əzmini nümayiş etdirdi. Bunun üçün biz Ermənistan tərəfə beynəlxalq hüquqa əsaslanan 5 prinsip göndərdik. Sonradan uzun müddət sülh müqaviləsi üzərində iş getdi. Ancaq həmin ərəfələrdə artıq Ermənistanla ikitərəfli kontaklar qurulmağa başladı. Bu kontaklardan biri də baş nazirin müavinləri səviyyəsində mütəmadi görüşlərin keçirilməsi idi. Bu görüşlər nəticəsində Azərbaycan işğal altında qalan 4 kəndin azad olunmasına nail oldu. Eyni zamanda həmin ərazidə artıq sərhəd xətti müəyyənləşdi. Digər tərəfdən belə qərara gəlindi ki, vaxtaşırı baş nazir müavinlərinin rəhbərlik etdiyi nümayəndə heyətləri qarşılıqlı səfər edəcəklər. Ötən il Ermənistan nümayəndə heyəti Qəbələdə oldu. Aprelin 29-da isə Baş nazirin müavini Şahin Mustafayevin rəhbərliyi ilə nümayəndə heyəti İrəvanda səfərdə oldu. Həm komissiyaların görüşü, həm də demorkasiya-delimitasiya məsələləri ciddi müzakirə olundu. Həmçinin, sülh müqaviləsi imzalandıqdan sonra görüləcək başqa məsələlər müzakirə mövzusu idi. Bundan başqa yenilik kimi Azərbaycan nümayəndə heyətinin Ermənistan biznes dairələrinin nümayəndələri ilə görüş keçirməsi oldu. Şübhəsiz ki, müəyyən təcrübə var. Bu, Azərbaycanın neft məhsullarını Ermənistana satması, Azərbaycan ərazisindən keçməklə digər ölkələrdən gələn taxılın Ermənistana çatdırılmasıdır. Bu, artıq sülh olana qədər atılan addımlar idi. Azərbaycan ümid edir ki, bu daimi olacaq və gələcəkdə bizim əlaqələrimiz daha geniş sahələri əhatə edəcək. Azərbaycan Ermənistanla qarşılıqlı surətdə ərazi bütövlüyünün tanınmasının tərəfdarıdır və bu istiqamətdə öz siyasətini daim davam etdirəcək.

***-Növbəti dövrdə Azərbaycanla Ermənista arasında dövlət sərhədinin delimitasiyası ilə bağlı hansı addımlar atılacaq?***

-Nümayəndə heyətlərinin tərkibində ayrı-ayrı istiqamətlər üzlər işçi qruplar var. Həmçinin, nümayəndə heyətləri görüşəndə artıq işçi qrupların kontaktlarının nəticələri müzakirə olunur. Hesab edirəm ki, müəyyən ciddi nəticə olduqdan sonra artıq ictimaiyyətə də açıqlanacaq. Hələki müzakirələr gedir. Bu müzakirələrin əsas məqsədi sərhədin dəqiqləşdirilməsidir. Bu zaman Azərbaycan öz ərazi bütövlüyünü axıra qədər qorumaq əzmindədir. Müvafiq mütəxəssislər var. Xəritələr və real vəziyyət nəzərə alınır. Hesab edirəm ki, əsas olan bu istiqamətdə işin getməsidir.

***-Məlum olduğu kimi, Azərbaycan Respublikasının ərazisi ilə Ermənistan Respublikasına yüklərin tranziti uğurla həyata keçirilir və hazırda da davam edir. Növbəti mərhələdə iqtisadi əlaqələrdə hansı yeniliklərin şahidi olacağıq?***



-Qonşu ölkələrin həmişə daha çox məsələlər üzrə iqtisadi əməkdaşlıq etmək imkanları var. Bu sərhədyanı ticarət, birgə müəssisələrin yaradılmasıdır. Azərbaycanın bu istiqamətdə təcrübəsi var. Ermənistan tərəfi də təkliflər edib. Eyni zamanda Baş nazirin müavini Şahin Mustafayevin erməni biznesmenlərlə görüşündə erməni tərəfinin də təklifləri nəzərdə keçirilib. Yəni, bu görüşlər məsləhətləşmə, istəklərin səsləndirilməsi və perspektivlərin müzakirə edilməsi xarakteri daşıyır. Belə görüşlər həm sülhü möhkəmləndirir, həm də real məsələlərin müzakirəsinə keçmək mümkün olur.

***-Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin imzalanması əsas müzakirə mövzularından biridir. Bu ilin iyun ayında Ermənistanda parlament seçkiləri keçiriləcək. Sizin fikirinizcə 2026-cı ildə sülh müqaviləsinin imzalanması gözlənilirmi?***

-Seçkidə kimin qalib gəlməsindən asılı olmayaraq, Azərbaycan Ermənistanla münasibətləri davam etdirmək fikrindədir. Əlbəttə ki, gələcək hökumətin Azərbaycana qarşı səmimi münasibətindən asılı olaraq bu gün dayandığımız yerdən davam edəcəyik. Ermənistanın Azərbaycana münasibətində dəyişiklik olacaqsa, müvafiq cavab veriləcək. Hər halda Azərbaycan bir tərəfdən əməkdaşlıq etmək istəyir, digər tərəfdən isə suverenliyimizi kiməsə güzəştə getməkfikrində deyil.

***Anar Kəlbiyev***

# Monopolistlərin daha bir ağlasığmaz soyğunçuluğu

## Burnumuzun dibindəki ölkədən 2 manata alınan bir məhsulu 35 manata satmağa nə ad verməK olar? - Bir daha dad inhisarçılar əlindən!



***Azərbaycana idxal olunan bəzi balıqlar dəyərindən çox baha satılır. Məsələn, bu günlərdə məlum olub ki, Rusiyadan 1 kiloqramı 2 manata idxal olunan nərə balığı Azərbaycan bazarında azı 35 manata (bir çox ticarət nöqtələrində isə hətta 40-45 manata) satılır.***

Məhsulun idxal göstəriciləri ilə pərakəndə satış qiymətləri arasında kəskin fərq isə müzakirələrə səbəb olub.

Bəzi sahibkarlar deyirlər ki, gömrükdə bəyan edilən qiymət sadəcə məhsulun alış dəyəridir. “Bura hələ bir çox əlavə xərclər daxil edilməyib. Qiymətin formalaşmasında digər bir məqam isə çoxpilləli satış sistemidir. Məhsulu ölkəyə gətirənlə onu piştaxtada satan şəxs eyni deyil. Pərakəndə satıcı bir neçə vasitəçidən sonra məhsulu əldə edir” - onlar əlavə edirlər.

Xəzər TV-yə danışan sahibkarların sözlərinə görə, son qiymətə təsir edən ən əsas faktorlardan biri də təmizlənmə zamanı yaranan çəki itkisidir. Satıcı məhsulu bütöv alsa da, müştəriyə hissə-hissə təqdim edərkən ciddi maya dəyəri artımı ilə üzləşir.

“Beləliklə, real görünməsə də, logistika, soyuducu xərcləri və təmizləmə zamanı yaranan təbii itkilər 2 manatlıq invoys qiymətini bazarda 30-35 manatlıq pərakəndə qiymətə çevirə bilir” - o deyib.

Lakin bir çox ekspertlər istənilən halda xaricdən, özü də qonşuluğundakı bir ölkədən kiloqramı 2 manata alınan məhsulun qiymətində 20 dəfəyə yaxın artımı absurd sayırlar. Vurğulayırlar ki, elə Rusiyanın özündə də belə balıqlar çox vaxt təmizlənmiş və dondurulmuş vəziyyətdə, üstəlik də hissə-hissə satılır. Digər tərəfdən, şübhəsiz ki, logistika və dondurucu xərcləri nəzərə alınmalıdır, ancaq həmin xərclərin həlledici rolu şişirtmədən başqa bir şey deyil.

“Məsələn, məlumdur ki, Ukrayna müharibəsi səbəbindən tətbiq olunan sanksiyalara görə Rusiya Avropa ölkələrinə birbaşa məhsul idxal edə bilmir, bunu üçüncü ölkələr, tutaq ki, Çin vasitəsilə idxal edir. Hətta bu halda belə Böyük Britaniya, Almaniya, Fransa kimi ölkələrdə Rusiya balığının tonu orta hesabla 3000-3500 dollar, yəni, təxminən 5-6 min Azərbaycan manatıdır. Bizdə isə kiloqramı orta hesabla 30 manat üzərindən hesablasaq, 1 ton üçün 30 min manat kimi bir rəqəm alınır. Yaxud, Çin özü Rusiyadan əsas balıq alıcısı sayılır. Rusiyanın balıq ixracının təxminən 50 faizi bu ölkəyə gedir. Özü də tonu orta hesabla 1,200-1,800 dollara, yəni hardasa 2000-3000 manata... İndi aradakı fərqi özünüz hesablayın. Belə olan təqdirdə 1 kiloqramı 2 manata idxal olunan nərə balığı Azərbaycan bazarında 35 manata satılmasını necə adi hal kimi qəbul etmək olar?!” - “Unikal”a danışan ekspertlərdən biri vurğulayıb.

Başqa bir ekspert isə Çində Rusiya nərə balığının qiymətinin ən pis halda orta hesabla 10 dollara, Cənubi Koreyada 15 dollara satıldığını bildirib. Avropa ilə ticarətin sanksiyalar səbəbindən çətinləşməsinə, bu sanksiyaların xərcləri kəskin artırmasına baxmayaraq isə həmin rəqəm orta hesabla 20 dolları ötmür. Hətta bu halda belə Azərbaycandakı qiymətin ən azı 2 dəfə yüksək olduğu göz qabağındadır.

Bir sözlə, sahibkarların nə deməsindən asılı olmayaraq, əksər idxal məhsullarında olduğu kimi, Rusiyadan gətirilən nərə balığının qiymətində də süni şəkildə ciddi şişirtmə olması şübhə doğurmur.

Onu da deyək ki, nüfuzlu beynəlxalq təşkilatların, xüsusilə, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) və Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) hesablamasına görə, bir insan həftədə: 2 porsiya balıq (təxminən 300-350 qram), ildə isə 15-20 kq balıq əti yeməlidir. Bu, sağlam qidalanma üçün optimal minimum sayılır. Xüsusilə yağlı balıqlar (somon, skumbriya və s.) ürək-damar sağlamlığı üçün vacibdir.

Dünyada orta balıq istehlakı (yenə FAO-nun hesablamasına görə) ildə təxminən 20-21 kq təşkil edib. Bu, son 50 ilin statistikasına baxdıqda xeyli yüksək rəqəmdir, bir sözlə, artıq balıq əti bir çox ölkədə əsas protein mənbələrindən birinə çevrilib.

“Unikal”ın araşdırması nəticəsində o da aydınlaşıb ki, balıq ətinin ümumi protein istehlakındakı payına görə Azərbaycan həm dünya üzrə orta statistikadan, həm də ayrı-ayrı ölkələrin statistikasından xeyli geri qalır:

**Yaponiya - 40-50 faiz;**

**Norveç başda olmaqla Skandinaviya ölkələri - 30 faiz və daha çox;**

**Əksər Avropa ölkələri - 20-25 faiz;**

**Azərbaycanda isə c ə m i - cümlətanı 5-7 faiz!**

İri çayların olduğu, üstəlik, dənizkənarı ölkədə yaşasaq da, yuxarıdakı rəqəm sadəcə ürək ağrıdıcıdır. Çayları bir yana qoyaq, şorluluğuna görə balıqlar üçün əlverişli hesab olunan Xəzərdə çoxlu yeməli balıq növü yaşasa da, satışda onların sadəcə 5-6 növünü görmək olur. Qızılxallı, zərdəpər, poru, qarabel siyənəyi, çapaq... - çoxları bu balıqların heç adını da eşitməyib.

Bir sözlə, balıq qida rasionumuzda layiqli və vacib yerini hələ də almayıb, elə qonşu ölkədən kiloqramı 2 manata alınıb gətirilən bir balığın 35-40 manata satılması göstərir ki, bunda inhisarçılığın rolu da az deyil. Ən azı ona görə ki, Azərbaycanda balıq məhsulları bazarının yalnız 20 faizini yerli məhsul təşkil edir, qalan 80 faiz isə idxal olunan məhsullara aiddir. İdxaldakı inhisarçılığın miqyası isə göz önündədir...

*Sənan Mirzə*



## DİM nümayəndələri Kamran Əsədovun məhkəməsində...

***Buraxılış və qəbul imtahanlarına qanunsuz texniki vasitə keçirilməsi ilə bağlı cinayət işi üzrə növbəti məhkəmə prosesi keçirilir.***

”Unikal”ın məlumatına görə, proses bu gün Gəncə Şəhər Məhkəməsində hakim Elçin Məmmədovun sədrliyi ilə baş tutub. Prosesdə təqsirləndirilən şəxslər tanınmış təhsil eksperti Kamran Əsədov və Gündüz Abbasov və DİM nümayəndələri iştirak edirlər. Hazırda prosesdə davam edir.

Xatırladaq ki, proses şahidlərin iştirakı olmadan keçirilir.

Qeyd edək ki, yanvarın 23-də tanınmış təhsil eksperti Kamran Əsədov məhkəmə zalından həbs edilib.

*Tural Əhmədov*

## Hikmət Hacıyev Səudiyyə Ərəbistanının səfirilə görüşdü



***Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Səudiyyə Ərəbistanının Azərbaycandakı səfiri İssam bin Saleh əl-Cüteili ilə görüşüb.***

”Unikal” xəbər verir ki, bu barədə səfirliyin “X” hesabında məlumat verilib.

Görüş zamanı qarşılıqlı maraq doğuran məsələlərin müzakirə olunduğu bildirilib.

## Çörək bahalaşacaq? - Rəsmi açıqlama

***Sosial şəbəkələrdə və internet informasiya resurslarında Azərbaycanda ərzaqlıq buğda və çörəyin bahalaşacağı, qıtlıq yaranacağı ilə bağlı yayılmış məlumat həqiqəti əks etdirmir.***



Bu barədə ”Unikal”a Prezident yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyindən bildirilib.

Məlumata əsasən, Agentlik un və un məmulatları bazarında mütəmadi monitorinqlər aparır, əhalinin istehlak səbətində yer alan strateji ərzaq məhsullarının qiymət dinamikasını daim diqqət mərkəzində saxlayır.

”Vətəndaşlara yalnız rəsmi mənbələrə etibar etməli, sosial şəbəkələrdə yayılan təsdiqlənməmiş informasiyalara qarşı diqqətli olmaları tövsiyə edilir”, - Agentlikdən bildirilib.

16_27 IYUl-QARA.qxd 4/30/2026 8:35 PM Page 9





## Kimdə qanunsuz silah varsa... - DİN-dən vətəndaşlara çağırış

Ötən polis əməkdaşları tərəfindən paytaxt və respublikanın ayrı-ayrı rayonlarında keçirilən əməliyyat tədbirləri nəticəsində qanunsuz saxlanılan 13 avtomat silahı, 1 tapança, 2 qumbara, 4 tüfəng, 9 patron darağı və 418 ədəd müxtəlif çaplı patron aşkar edilərək götürülüb.

DİN-in Mətbuat Xidmətindən "Unikal"a bildirilib ki, odlu silah və sursatın qanunsuz saxlanılması və daşınması qanunvericiliyə əsasən cinayət məsuliyyəti yaradır. Bu cür vasitələrin könüllü təhvil verilməsi isə şəxsi məsuliyyətdən azad edir.

Vətəndaşlara tövsiyə olunur ki, istifadəsiz və ya qanunsuz saxlanılan silah-sursat barədə dərhal polis orqanlarına məlumat versinlər. Bu, həm hüquqi məsuliyyətdən azad olmaq, həm də ictimai təhlükəsizliyin qorunmasına töhfə vermək baxımından mühüm əhəmiyyət daşıyır.

Polis əməkdaşları tərəfindən tərəfindən qanunsuz silah-sursatın aşkar olunaraq götürülməsi istiqamətində əməliyyat və profilaktik tədbirlər davam etdirilir.

## Rezidenturaya qəbul olmaq istəyənlər üçün vacib gün



***Mayın 3-də Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən rezidenturaya qəbul imtahanının birinci mərhələsi (baza fənləri üzrə biliklərin qiymətləndirilməsi imtahanı, birinci cəhd) keçiriləcək.***

DİM-dən "Unikal"a bildirilib ki, imtahanda 1702 namizəd iştirak edəcək. Onlardan 1308 nəfəri Azərbaycan, 394 nəfəri isə rus bölməsi üzrə imtahan verəcək. Ərizə verənlərin 700 nəfəri oğlan, 1002 nəfəri isə qızdır. 301 nəfər cari ilin, 760 nəfər əvvəlki illərin məzunudur. 641 nəfər növbəti illərdə məzun olacaq tələbələrdir. 21 nəfər xarici ölkə vətəndaşıdır.

İmtahan Bakı və Naxçıvan şəhərlərində keçiriləcək. İmtahan saat 10:00-da başlanır və 2 saat 30 dəqiqə davam edəcək. Saat 09:45-də buraxılış rejimi başa çatır. Bundan sonra gələn iştirakçılar imtahan binasına buraxılmır.

Namizədlər DİM-in internet saytına daxil olaraq imtahana buraxılış vərəqəsini çap etməlidirlər. Buraxılış vərəqəsi ilə yanaşı onlara "Namizədin yaddaş kitabçası" da təqdim olunur. Burada namizədlərə imtahan prosesi ilə bağlı vacib tövsiyələr, onların əməl etməli olduqları qaydalar və digər zəruri məlumatlar çatdırılır.

Namizədlər imtahana şəxsiyyəti təsdiq edən sənədin əsli və buraxılış vərəqəsini gətirməlidirlər.

İmtahan binasına buraxılış vərəqəsində qeyd olunan vaxtda gəlmək lazımdır. İmtahan binasına mobil telefon və digər rabitə vasitələri, elektron cihazlar, kalkulyator, elektron məlumat daşıyıcısı, kitab, dəftər, jurnal, konspekt, məlumat kitabçası, lüğət, cədvəl, çanta və digər yardımçı vəsaitlər gətirmək qadağandır. İştirakçılardan imtahan binasına əlavə əşyaları gətirməməyi xahiş edirik. Bütün bunlar buraxılış rejimi işinin səmərəli təşkilinə və onun vaxtında başa çatdırılmasına mane olur.

İmtahanların keçirilməsi üçün, ümumilikdə 7 imtahan binası, 19 imtahan rəhbəri, 7 ümumi imtahan rəhbəri, 152 nəzarətçi, 19 buraxılış rejimi əməkdaşı (mühafizə) və 7 bina nümayəndəsi ayrılıb.

# Rüfət Quliyevə aid edilən şirkət ətrafında müəmma

## Ölkənin məşhur siqaret istehsalçısı niyə "batdı"? - Deputat inkar edir, amma...

***Ötən həftə "European Tobacco-Baku" ASC ləğv edilib. Bu barədə şirkət "Vergilər" qəzetində elan yerləşdirib.***

Bildirilib ki, kreditorlar iki ay ərzində tələblərini AZ1031 Bakı şəhəri, Nizami rayonu, Keşlə ŞTQ, Köndələn uzununa 1-ci küçəsi, ev 21 ünvanına bildirə bilərlər.

Qeyd edək ki, Azərbaycanın əsas siqaret istehsalçısı olan, hətta inhisarçı mövqelərə malik şirkət 2021-ci ildə yaradılıb və nizamnamə kapitalı 133,9 min manatdır. "European Tobacco-Baku"nun qanuni təmsilçisi isə Tural İsmayıl oğlu Qasımovdur.

Media şirkətin sahibi kimi Milli Məclisin 4 çağırış deputatı, iqtisad elmləri doktoru, professor Rüfət Quliyevi göstərib. Lakin modern.az-a açıqlamasında Quliyev bildirib ki, artıq 10 ildir ki, "European Tobacco" şirkəti ilə əlaqələri kəsib: "Europeon Tobacco"nun mənə aid olması ilə bağlı məlumat düzgün deyil. Artıq 10 ildir ki, mən orada çalışmıram, heç bir əlaqəm də yoxdur".



"Unikal"ın araşdırmasına görə, hələ 2013-cü ildə həmin vaxt da Milli Məclisin üzvü olan Rüfət müəllimin "European Tobacco-Baku" rəhbərliyindən uzaqlaşdırılması ilə bağlı məlumat yayılıb. Lakin sonradan həmin məlumat təkzib olunub və məlum olub ki, Quliyev şirkətin rəhbəri olaraq qalır.

Millət vəkilinin dediklərindən belə anlaşılır ki, o, ölkənin siqaret monopolistlərindən biri olan ASC ilə əlaqələrini 2016-cı ildə kəsib. Lakin yenə qəzetimizin araşdırmasına görə, R.Quliyev ən azı 2019-cu ilədək şirkətə rəhbərliyini davam etdirib. Sonradan isə onun "European Tobacco-Baku"dan formal şəkildə uzaqlaşdığı yönündə iddialar var. Bu uzaqlaşmaya səbəb kimi qanunvericilikdə rəsmi vəzifəli şəxslərin, o cümlədən deputatların biznes fəaliyyətinə qadağa qoyulması göstərilir.

Qeyd edək ki, sözügedən tarixədək də qanunvericilikdə eyni qadağa mövcud idi, lakin Milli Məclis üzvlərinin bəziləri hansısa özəl müəssisələrlə bağlılığını gizlətmirdilər. Məsələn, qeyri-dövlət universitetinin rəhbəri olan da var idi (məsələn, "Odlar Yurdu" Universitetinə rəhbərlik edən Əhməd Vəliyev), hansısa zavodun rəhbərliyində təmsil olunan da (məsələn, Gəncə Avtomobil Zavodu İstehsalat Birliyi Müşahidə Şurasının sədri postunu tutan Xanlar Fətiyev). Lakin 2015-ci ildə keçirilən parlament seçkilərinin ardından bu cür deputatların əksəriyyəti ikinci vəzifələri ilə vidalaşdılar. Mümkündür ki, R.Quliyev də bu prosesin sonucu olaraq 2019-cu ildə "European Tobacco-Baku" rəhbərliyindən rəsmi şəkildə kənarlaşıb. Ancaq əvvəl də vurğuladığımız kimi bunun daha çox formal xarakter daşıdığı yönündə iddialar var.

O ki, qaldı uzun illər Azərbaycanın siqaret monopolisti olmuş "European Tobacco-Baku" niyə ləğv edilib? Bu barədə rəsmi açıqlama yoxdur, amma müəyyən ehtimallar irəli sürülməkdədir. Həmin ehtimallar arasında R.Quliyevin deputat həmkarı Cavanşir Feyziyevin nəzarətindəki "Azərtütün"ün bazarda ön plana çıxması da göstərilir.

"Unikal"a danışan bir qaynağın sözlərinə görə, 2021-ci ilin payızında "Azərbaycan Sənaye Korporasiyası" ASC-yə məxsus "Azərtütün" ASC-nin 85 faizlik səhm paketinin özəlləşdirilməsinə dair investisiya müsabiqəsinin nəticəsi açıqlanıb. Həmin səhm paketinin əldə edilməsi üzrə müsabiqənin qalibi "Tabaterra Leaf" QSC adlı şirkət olub. Həmin vaxt bildirilirdi ki, şirkət səhm paketi üçün 17 milyon 281 min 464 manat ödəyəcək. Bu isə "Azərtütün"ə kifayət qədər böyük məbləğdə investisiya qoyulduğu anlamına gəlir.

"O da maraqlı idi ki, "Tabaterra Leaf" QSC elə həmin il aprel ayının 24-də, yəni "Azərtütün"ün özəlləşdirməyə açıldığı vaxtlarda dövlət qeydiyyatına alınmışdı. QSC-nin nizamnamə kapitalı 5 min manat, qanuni təmsilçisi isə Elman Bəşir oğlu Cavanşir göstərilirdi. Elman Cavanşir həm də ölkənin aparıcı siqaret istehsalçısı olan "Tabaterra" QSC-nin qanuni təmsilçisi kimi təqdim olunurdu. Bildirilirdi ki, nizamnamı kapitalı 78 milyon 10 min manat olan "Tabaterra" QSC 2017-ci ildə dövlət qeydiyyatına alınıb. Elman Cavanşirin isə deputat Cavanşir Feyziyevin qardaşı oğlu olduğu məlum idi. Hətta o zamanlar İngiltərənin "The Evening Standard" qəzeti yazmışdı ki, Böyük Britaniya Milli Kriminal Agentliyinin tələbi ilə çirkli pulların yuyulması qalmaqalı səbəbindən bank hesabları dondurulan Feyziyev ailəsi üzvlərindən biri də məhz Elman Cavanşirdir. Belə ki, onun bank hesabında 1 milyon funt sterlinqdən bir az çox vəsait aşkar edilmişdi. Elman Cavanşir deputat Feyziyevin çoxşaxəli biznes imperiyasını idarə edənlərdən biri olaraq da göstərilirdi" deyə mənbəmiz vurğulayıb. Əlavə edib ki, yuxarıdakı iddialar nə o zaman, nə də daha sonralar deputat, yaxud qardaşı oğlu tərəfindən təkzib olunmayıb.

Onu da vurğulamaq yerinə düşər ki, "Tabaterra" fabrikinin Böyük Britaniya, Almaniya və İtaliya texnologiyaları əsasında qurulduğu, il ərzində 11 milyard ədəd 3 növdə filtrli siqaretlər istehsal etdiyi, ölkənin tütün məmulatlarına olan tələbatının 80 faizini qarşılaya biləcək gücdə olduğu da açıqlanmışdı. Sonradan "Azərtütün"ün də Feyziyevin nəzarətinə keçməsi ilə ehtimal etmək mümkündür ki, o, bir zamanlar ölkənin dərman bazarında olduğu kimi indi də siqaret bazarında həlledici oyunçuya çevrilib.

"European Tobacco-Baku" ASC-nin ləğvində bu məqamın nə qədər rol oynadığını demək çətindir, bununla belə, ciddi təsiri olduğunu rahatlıqla söyləmək mümkündür.

***Sənan Mirzə***

16_27 IYUl-QARA.qxd 4/30/2026 8:35 PM Page 10



# Daha bir biznesmen-deputatla bağlı sensasiyalı iddia

## Əlibala Məhərrəmzadənin təsdiqə bərabər təkzibi - Məşhur hotel ətrafında nə baş verir?

***Yola salmaq üzrə olduğumuz həftə Milli Məclisin deputatı Əlibala Məhərrəmzadəyə məxsus olduğu deyilən və Quba şəhəri Lütfizadə küçəsində yerləşən "Şahdağ" oteldə adıçəkilən rayonun İcra Hakimiyyəti tərəfindən qanunsuz tikinti-quraşdırma işlərinin aşkarlandığı barədə məlumat yayılıb.***

Bunun ardınca isə Məhərrəmzadə sözügedən barədə iddialara münasibət bildirərkən yayılan məlumatları təkzib edib. Ardınca isə deyib ki, sözügedən otel ona məxsus deyil: ""Şahdağ" hoteli qardaşıma məxsusdur. Orada qanunsuz tikinti yoxdur..." (Pravda.az)



Maraqlı burasıdır ki, ötən ilin əvvəllərində Əlibala Məhərrəmzadənin Qubada özünə məxsus hoteli borc əvəzinə təhvil verdiyi iddia edilmişdi. Lakin deputat həmin vaxt bu xəbərə hər hansı münasibət bildirməmişdi.

Onu da deyək ki, adıçəkilən millət vəkili hazırda ən varlı biznesmen-deputatlardan sayılır. Yenə ötən il mediada yer alan məlumatlara görə o, çox sayda şirkətin sahibidir. Bu sırada "Shahdag Quba Truskavets Medical Sanatorium", "Shahdag Quba Truskavets VIP Sanatorium", "Shah Mebel" şirkətlər qrupu və istehsal fabriki, avtomobillərin lizinqi ilə məşğul olan "İnternational Leasing Company", Bakı və İmişlidə 4 filialı fəaliyyət göstərən "Rahat Kredit" lombard şəbəkəsi, "TrendPay" elektron ödəmə sistemi, neft və qaz sənayesi üçün avadanlıqların alınmasını həyata keçirən "Caspian Standart CO LLC", beynəlxalq dəniz yükdaşıma şirkəti olan "Dialog Freight Limited", eləcə də Londondan idarə edilən və 75 faizi "Dialog Freight Limited"ə məxsus "Dialog Freight (UK) Limited" şirkətlərini göstərmək olar. Sadaladıqlarımız Məhərrəmzadənin ölkə daxilindəki şirkətlərinin yalnız bir hissəsidir.

Onun biznes imperiyasına daxil olan müəssisələr arasında "Agrolayn Group" MMC, "Ukrayna Ticarət Evi", Tacikistan Ticarət Evi", "Parla Pharma" əczaçılıq şirkəti, nizamnamə kapitalı 20 milyon manatdan yüksək olan "A and Holdinq" MMC, "Abşeron Tekstil" fabriki, "World Trust Company" tərcümə şirkəti, Türkiyədə qida məhsullarının topdansatışı ilə məşğul olan "Şahdag İç Dış Ticartet İdhalat İhracat Limited Şirketi", yenə qardaş ölkədə fəaliyyət göstərən və həyat yoldaşı Nərmin Məhərrəmzadənin adına "Bisou Güzellik və Kozmetik Sanayi Ticaret Anonim Şirketi" (2022-ci ildə Türkiyə Səhiyyə Nazirliyinin Kozmetik Denetim Dairesi Başkanlığı tərəfindən aparılan analizlərin nəticələrinə görə saxta kosmetik vasitələrin dövriyyəsinə görə cərimə olunub) də var.

Bu qədər şirkəti olan bir biznesmen-deputatın külli miqdarda borc içində olduğu bir az qeyri-inandırıcı görünsə də, hər halda onun məhz sözügedən səbəbdən hotelini təhvil verdiyi yönündə xəbərlər maraq doğurmaya bilməzdi. Lakin yuxarıda da vurğuladığımız kimi, həmin xəbərlər qarşısında susqunluğunu qoruyan Məhərrəmzadə nədənsə bu dəfə hotelində qanunsuz tikinti işlərinin aparılmasının aşkarlanmasına dair məlumatlara dərhal reaksiya vermək ehtiyacı hiss edib.

Diqqətçəkən bir məqam da var: Əlibala müəllim sözügedən hotelin ona məxsus olmasını təkzib edib, ancaq həmin təkziblə əslində iddiaları təsdiqləmiş olub. Məlum məsələdir ki, ölkə qanunvericiliyinə əsasən, Milli Məclis üzvləri biznes fəaliyyəti ilə məşğul ola bilməzlər. Bir az da konkretləşdirsək, Azərbaycan Respublikası Konstitusiyasının 85 və 89-cu maddələrində qeyd olunur ki, dövlət orqanlarında vəzifə tutan və ödənişli əsaslarla çalışan, kommersiya və sahibkarlıqla məşğul olan şəxslərin deputat olması qadağandır. Ona görə də bəzi deputatlar - eynilə bir sıra iri məmurlar kimi! - öz bizneslərini ailə üzvlərinin, yaxın, hətta bəzən uzaq qohumlarının, tanışlarının adına rəsmiləşdirirlər. İndi Məhərrəmzadənin də eyni "taktikaya" əl atdığını, öz şirkətlərini qohum-əqrəbasının, ailə üzvlərinin "ayağına yazdığını" anlamaq çətin deyil.

Onu da deyək ki, elə Qubada dünyaya gələn və hazırda 51 yaşı olan Məhərrəmzadə 2024-cü ildən deputatdır. Daha əvvəl - 2010-cu ildə keçirilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 20 saylı Nərimanov ikinci seçki dairəsindən deputatlığa namizəd olsa da, mandat qazana bilməmişdi.

2025-ci ildə Məhərrəmzadənin adı öz evində və obyektində iş görən ustaların əmək haqlarını verməməsi ilə də gündəmə gəlmişdi. Həmin vaxt deyilirdi ki, kim bilir, bəlkə də, biznesmen-deputat borclu olduğu üçün hotelini satması ilə bağlı iddialara məhz buna görə cavab vermir. Qoy ustalar ona acısın və halal haqlarını istəməkdən daşınsınlar...

***Sənan Mirzə***

# Azərbaycanda saatlıq əməkhaqqı sistemi tətbiq olunacaq



***"Azərbaycanda saatlıq əməkhaqqı sisteminə keçid daha qısa zamanda reallaşa bilər. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi saatlıq əməkhaqqı ilə bağlı qanun layihələrinin hazırlanması ilə bağlı işlərin aparıldığını bildirib".***

"Unikal" xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. Onun sözlərinə görə, inkişaf etmiş dövlətlərin təcrübəsi göstərir ki, saatlıq əməkhaqqı sisteminin bir sıra üstünlükləri mövcuddur: "Bu model vətəndaşların "overtime", yəni, əsas iş saatlarından artıq işlədikləri müddətə görə əlavə ödəniş almalarını təmin edir. Eyni zamanda bir neçə yerdə işləmək imkanlarını genişləndirir ki, bu da mühüm amillərdəndir. Yeni mexanizmin tətbiq olunması, əməkhaqqı aylıq deyil, saatlıq olaraq hesablanmasına gətirib çıxaracaq. Saatlıq əməkhaqqının hesablanması bir tərəfdən vətəndaşlarımıza işlədikləri müddətin saatlar üzrə hesablanması və onların əməkhaqlarında artımların reallaşmasına gətirib çıxara bilər. Eyni zamanda vətəndaşımız saatlar üzrə differensial olaraq bir deyil, bir neçə iş yerində çalışa bilər. Bu da onun əməkhaqqının artmasına gətirib çıxaran faktorlardan olacaq. Beynəlxalq təcrübəni nəzərə alsaq, bu qeyri-iş günlərində və iş saatlarından sonra çalışan vətəndaşlarımızın əməkhaqqlarında xüsusi əmsalların tətbiq edilməsinə və daha çox əməkhaqqı almasına səbəb ola bilər. Bütövlükdə yeni və inkişaf etmiş ölkələrdə tətbiq edilən bir mexanizmdir və bunun özəlliyi ondan ibarətdir ki, vətəndaşlarımızın əməkhaqqılarının və əməyinin daha yüksək qiymətləndirilməsi real olaraq həyata keçirilsin.

Təbii ki, bu zaman meyarlar müəyyənləşəcək. Eləcə də saatlıq əməkhaqqı üçün də minimumlar məlum olacaq. Saat üçün minimum ödənişlər həm də aylıq əməkhaqqı üçün minimum ödənişlərin məbləğinə uyğunlaşdırılmalıdır və daha yüksək olmalıdır. Artıq yeni mexanizmin hazırlanması prosesi gedir. Son mərhələ razılaşdırmalardan sonra bunun nə zaman tətbiq ediləcəyi bəlli olacaq. Bütün hallarda bu mexanizmin tətbiq olunması əməkhaqqı sistemində bir yenilikdir".

# Ümumdünya Ətraf Mühit Gününə ev sahibliyi edəcəyik




***Azərbaycan Respublikası Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit Proqramı (UNEP) ilə tərəfdaşlıq çərçivəsində 5 iyun 2026-cı il tarixində Bakıda Ümumdünya Ətraf Mühit Gününə (WED) ev sahibliyi edəcək.***

Ekologiya və Təbii Sərvətlər Nazirliyindən "Unikal"a verilən məlumata görə, tədbir "Təbiətdən ilham alaraq. İqlim naminə. Gələcəyimiz naminə" mövzusu altında keçiriləcək.

Qeyd edilib ki, Azərbaycan Ümumdünya Ətraf Mühit Günü ilə bağlı estafeti 2024-cü ildə Koreya Respublikasında keçirilən tədbirdə qəbul edib.

"1972-ci ildə Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası tərəfindən təsis edilən Ümumdünya Ətraf Mühit Günü milyonlarla insanı bir araya gətirən ətraf mühit sahəsində qlobal platformadır.

Qeyd edək ki, Azərbaycan qorunan təbiət ərazilərinin genişləndirilməsi, biomüxtəlifliyin qorunması, ekosistemlərin bərpası və iqlim dəyişmələri ilə mübarizə istiqamətində fəaliyyətini davam etdirir. Ölkə, həmçinin Paris Sazişi tərəfi kimi emissiyaların azaldılması öhdəliyini götürüb və bərpa olunan enerji sahəsini genişləndirir.

COP29-a ev sahibliyinin yaratdığı dinamikanı davam etdirən Azərbaycan bu tədbir vasitəsilə beynəlxalq əməkdaşlığın daha da gücləndirilməsinə və ekoloji öhdəliklərin praktik fəaliyyətə çevrilməsinə töhfə verməyi hədəfləyir.

Azərbaycan Respublikası və BMT-nin Ətraf Mühit Proqramı bütün tərəfləri Ümumdünya Ətraf Mühit Gününə qoşulmağa və ətraf mühitin qorunması naminə birgə fəaliyyət göstərməyə dəvət edir", - məlumatda bildirilib.

16_27 IYUl-QARA.qxd 4/30/2026 8:35 PM Page 11





## Sabiq ekspert xaricdə təhsil alan şəxsləri aldatdı - Məhkəmə

*Xaricdə təhsil alan şəxslərin diplomlarını ölkəmizdə tanıdacağını və eyni zamanda ucuz mənzillər satacağı adla külli miqdarda dələduzluq edən Təhsil Nazirliyinin sabiq eksperti Maqsud Nəsirovun məhkəməsi başlayıb.*

"Unikal"ın məlumatına görə, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Vüqar Seyidovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxs Maqsud Nəsirov ifadə verib.

"2017-2018-ci illər ərzində Təhsil Nazirliyində xarici diplomların tanınması ilə əlaqədar ekspert vəzifəsində, 2018-2024-cü illər zində Dövlət Vergi Xidmətində müxtəlif vəzifələrdə, sonuncu dəfə isə İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətində vergi müfəttişi vəzifsində çalışmışam. Təxminən 2023-cü ilin oktyabr ayında maklerlik fəaliyyəti ilə məşğul olan tanışım Tural Əhmədov mənə bildirdi ki, Ayna Sultanovanın heykəlinin arxasında, Səttar Bəhlulzadə küçəsində yerləşən "Mahal" MTK tərəfindən inşa edilmiş "Nar Residence" adlı binada ucuz qiymətə mənzillər hazırda satışdadır. Guya həmin mənzillərin sahibləri hazırda vergi borcları olduğundan ucuz qiymətə satmaq macburiyyətindədirlər. Mən də bu barədə Nicat Əhmədliye dedim və o mənə 110 min manat pul verdi. Ona dəymiş ziyanın müəyyən hissəsini - 60 mini hissə-hissə olaraq ödəmişəm. Həmin mənzillərin ümumi dəyəri 240 min idi".

Zərərçəkmiş Nicat Əhmədli isə bildirib ki, təqsirləndirilən şəxslə ortaq dostların vasitəsilə tanış olublar: "Maqsud mənə dedi ki, yaranmış vergi borclarına görə, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən müsadirə edilmiş evlərin hərrac yolu ilə satılmasını təklif etmişdi. Ümumi vəziyyəti soruşanda mənə müxtəlif bəhanələr gətirdi. Mən sonra ondan şikayət etdim və 52 min 500 manatını qaytardı. Mənə dəymiş ziyanın tam ödənilməsini tələb edirəm".

Məhkəmənin növbəti iclası iyunun 4-nə təyin edilib.

Maqsud Nəsirova qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla) və 320.1-ci (Hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma) maddələri ilə ittiham irəli sürülüb.

İş üzrə 6 zərərçəkmiş var dəymiş ziyan isə 400 min manatdan çoxdur.

***Orxan Rasifoğlu***

## 3 gün ardıcıl iş olmayacaq



***Bu il Faşizm üzərində qələbə günü ilə əlaqədar 3 gün ardıcıl qeyri-iş günü olacaq.***

"Unikal" xəbər verir ki, bu il mayın 9-u şənbə gününə təsadüf edir.

Əmək Məcəlləsinə əsasən, həftələrarası istirahət günləri və iş günü hesab olunmayan bayram günləri üst-üstə düşərsə, həmin istirahət günü bilavasitə bayram günündən sonrakı iş gününə keçirilir.

Mayın 10-u bazar gününə təsadüf etdiyinə görə, 11 may qeyri-iş günü olacaq.

Beləliklə, bu il 9, 10 və 11 mayda ardıcıl iş olmayacaq.

# "Hafka" ortaya çıxdı

## Müflisləşmiş iş adamından yeni xəbərlər var - Qurban Qurbanovla foto çəkdirdi, gündəm oldu, halbuki...

***Bir vaxtların tanınmış və qalmaqallı iş adamı, "Baghlan Group" şirkətinin rəhbəri, "Bank of Azerbaijan"ın Müşahidə Şurasının sədri və "Bakı" FK-nın sabiq prezidenti Hafiz Məmmədov (Hafka) və "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanovun birgə fotoları gündəm olub. "Unikal" xəbər verir ki, onlar idmançı Hacı Əliyevin doğum günündə bir araya gələrək foto çəkdiriblər.***

Qeyd edək ki, Hafiz Məmmədov 2014-cü ildən sonra iş həyatında uğursuzluq yaşamağa başlayıb. Həmin vaxtdan sonra sahib olduğu şirkətləri itirməyə başlayıb. Böyük pay sahibinə çevrildiyi "Lans" klubu da əlindən çıxıb. Eyni zamanda "Bakı" klubu da fəaliyyətini dayandırıb. Hətta o, borclar səbəbindən məhkəmə qərarı ilə klubun Biləcəri qəsəbəsindəki böyük bazasını da itirib.

Daha əvvəl iş adamının "milyonçular məhəlləsi" adlanan Məmməd Araz küçəsində 9 ədəd villasının olduğunu, lakin villalarını bu illər ərzində dəyər-dəyməzə satdığını yazmışdıq. Həmin vaxt bildirmişdik ki, Hafiz Məmmədov müflisləşməsindən sonra, təxminən 10 ildən artıq müddətdə çoxsaylı əmlakının hesabına oliqarx həyatını davam etdirib. Lakin eksmilyonçu hazırda bütün əmlaklarını itirib. Belə ki, onun Məmməd Araz küçəsindəki 9 ədəd villasının bir hissəsini "Putin İlham" kimi tanınan biznesmen İlham Rəhimov alıb, bir hissəsi isə digər şəxslərə satılıb.

Hazırda Hafiz Məmmədovun "milyonçular məhəlləsi"ndə demək olar ki, qalmağa yeri yoxdur. Hətta o vaxt əldə etdiyimiz məlumatda bildirilirdi ki, o, Ağ Şəhərdə yerləşən binaların birində kirayədə yaşayır.

Bundan başqa, "Hafka"nın İngiltərənin London şəhərində yerləşən mülkünün də ailəsinin əlindən çıxdığı məlumdur.

"Unikal"ın bu yazını hazırlayarkən keçmiş iş adamına yaxın qaynaqlardan əldə etdiyi yeni məlumatda onun hələ də kirayədə yaşadığı, yaxın bir neçə imkanlı dostunun dəstəyi ilə ayaqda qaldığı deyilir. Hətta H.Məmmədovun toylara, ad günlərinə də məhz bu dəstək sayəsində qatıldığı bildirilir. "İnanmaq çətindir, lakin 15 il öncə ölkənin ən imkanlı, lüks həyat yaşayan adamlarından biri olmuş Hafiz müəllimin indi əlində demək olar ki, heç nə qalmayıb. Vaxtilə əl tutduğu şəxslərdən çoxu müflisləşməsindən sonra onunla əlaqəni kəsiblər, onu itirib-axtarmayıblar, ancaq bəzi dostları etibarlı çıxıblar, Hafiz müəllimə mümkün olduğu qədər dayaq durmağa çalışırlar" deyə qaynaqlarımız vurğulayırlar.

Onu da deyək ki, indi illərcə ortaya çıxmayan və bir ad günündə "Qarabağ"ın baş məşqçisi ilə çəkdirdiyi fotoşəkil sayəsində bir andaca gündəm olan "Hafka" vaxtilə bahalı həyat tərzi ilə media səhifələrini "bəzəyirdi". Əslində onun iflas etməsində bu cür həyat tərzinin də rolu az deyil.

Qalmaqallı iş adamının "bankrot" olmasında hədsiz dərəcədə israfçılığı danılmazdır. Fantastik məbləğlərlə müşahidə olunan xərcləmələri səbəbindən bir vaxtlar adı mütəmadi gündəmə gələn "Hafka"nın çöküşündə onun İspaniyanın "Atletiko", Fransanın



"Lans" klublarına sponsor olması ciddi rol oynayıb. Bu sponsorluqların səbəbi indiyədək bəlli deyil, məlum olan bircə odur ki, Hafiz Məmmədovun dəxilsiz və anlamsız şəkildə "böyük oynamağa" başlaması onu iflas həddinə gətirdi.

Düzdür, "Hafka"nın hazırkı müflis vəziyyətə düşməsinin, tamamən iflas etməsinin başqa bir səbəbi də var: özünə düzgün şərik seçməməsi! Belə ki, H.Məmmədovun iflas etməsində bir zamanlar ortağı olmuş sabiq nəqliyyat naziri Ziya Məmmədovla şərikliyinin pozulması həlledici amillərdən biri olaraq göstərilir. Hətta vəziyyət o yerə çatmışdı ki, "Hafka" dəfələrlə məhkəmələik olmuş, nəticədə var-dövlətinin xeyli hissəsini itirmişdi. Ancaq onun nəhəng varidatının mühüm hissəsini itirməsində yuxarıda bəhs etdiyimiz anlaşılmaz sponsorluqların, şou-biznes ulduzlarından lüks avtomobillərədək sağa-sola böyük pullar xərcləməsinin rolu az olmayıb.

Düzdür, bəzi iddialara görə, qalmaqallı iş adamı "sönən ulduzunu" yenidən parlatmağın yollarını axtarır. Lakin indi bütün mülklərini sataraq kirayədə yaşamaq məcburiyyətində qalacaq qədər müflisləşən biri üçün bu, az ehtimal ediləndir, mövcud vəziyyətdə "Hafka" çətin ki, əvvəlki ehtişamına yaxınlaşa bilsin.

Onu da deyək ki, hazırda Hafiz Məmmədovun 62 yaşı var. İki il öncə onun 60 yaşı tamam olub və müflisləşmiş iş adamının yubileyi çox sönük, tamamilə dar bir dairədə keçib. Daha doğrusu, yenə ona dəstək olmağa çalışan dostları sayəsində keçirilib! Halbuki onun 50 yaşını kifayət qədər təmtəraqlı və geniş bir çevrənin iştirakı ilə keçirdiyi barədə xəbərlər hələ də unudulmayıb...

***Toğrul Əliyev***

16_27 IYUl-QARA.qxd 4/30/2026 8:35 PM Page 12



**5.3.10. gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Uşaq ədəbiyyatının vətənpərvərliyin təbliğində rolu

## Qəşəm Nəcəfzadə: "Çox təəssüf edirəm ki, bizə o şeirləri səsləndirməyə auditoriya təşkil edən yoxdur"

***Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi müasir cəmiyyətin ən vacib məsələlərindən biridir.***

Qloballaşma şəraitində milli dəyərlərin qorunması, tarixə, dilə və mədəni irsə bağlılığın gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan gənclərin öz kimliyini dərk etməsi, milli maraqları üstün tutması və Vətənə sevgi ruhunda yetişməsi dövlətin və cəmiyyətin qarşısında duran əsas vəzifələrdəndir. Milli mənlik şüurunun formalaşdırılması yalnız təhsil sistemi ilə məhdudlaşmır, eyni zamanda ailə, ictimai mühit və kütləvi informasiya vasitələrinin birgə təsiri ilə həyata keçirilir. Bu prosesin düzgün istiqamətləndirilməsi gələcəkdə vətəninə bağlı, məsuliyyətli və fəal vətəndaşların yetişməsinə zəmin yaradır. Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin gücləndirilməsi üçün bir neçə mühüm istiqamətdə sistemli iş aparılmalıdır. İlk növbədə, təhsil sistemi bu prosesin əsas dayağı kimi çıxış etməlidir. Məktəblərdə tarix, ədəbiyyat və ana dili dərslərinin keyfiyyətli tədrisi, milli dəyərlərin şagirdlərə düzgün şəkildə aşılanması xüsusi əhəmiyyət daşıyır.

Ailə mühiti də bu sahədə mühüm rol oynayır. Valideynlər uşaqlara kiçik yaşlardan etibarən Vətənə sevgi, milli adət-ənənələrə hörmət hissini təlqin etməlidirlər. Ailədə milli bayramların qeyd olunması, tarixi şəxsiyyətlər və hadisələr haqqında söhbətlər uşaqlarda milli kimlik hissini gücləndirir.

Bununla yanaşı, kütləvi informasiya vasitələri və sosial media da düzgün istiqamətdə istifadə olunmalıdır. Milli dəyərləri təbliğ edən proqramlar, filmlər və layihələr gənclərin marağını artırmaqla yanaşı, onların düşüncə tərzinə müsbət təsir göstərir.

Nəhayət, gənclərin ictimai fəaliyyətə cəlb olunması, vətənpərvərlik ruhunda təşkil olunan tədbirlər, ekskursiyalar və layihələr onların milli mənlik şüurunun daha da möhkəmlənməsinə kömək edir. Bu istiqamətdə dövlət, məktəb və cəmiyyət birgə fəaliyyət göstərdikdə daha səmərəli nəticələr əldə etmək mümkündür.

Demək olar ki, vətənpərvər gənclik yetişdirmək üçün ailə, təhsil sistemi və cəmiyyət birlikdə və məqsədyönlü şəkildə fəaliyyət göstərməlidir. Bədii kitablar və ümumilikdə uşaq ədəbiyyatı gənc nəslin formalaşmasında çox mühüm rol oynayır. Onların təsiri təkcə dil və düşüncə inkişafı ilə məhdudlaşmır, həm də dəyərlərin aşılanmasına birbaşa təsir edir.

Əvvəla, bədii əsərlər uşaqlarda vətənə, torpağa və milli kimliyə qarşı emosional bağlılıq yaradır. Tarixi mövzulu nağıllar, hekayələr və romanlar vasitəsilə uşaq keçmişini tanıyır, xalqının yaşadıqlarını hiss edir və bu, onda təbii bir vətən sevgisi formalaşdırır.

Digər tərəfdən, uşaq ədəbiyyatı mənəvi keyfiyyətlərin inkişafında əvəzsizdir. Vətənpərvərlik ədalət, cəsarət, dostluq, fədakarlıq kimi dəyərlər obrazlar vasitəsilə daha təsirli şəkildə çatdırılır. Uşaq bu obrazlarla özünü eyniləşdirir və onların davranışlarını nümunə götürür.

Bədii kitablar həm də dilin qorunması və inkişafı üçün vacibdir. Uşaqlar ana dilinin gözəlliyini, ifadə imkanlarını məhz ədəbiyyat vasitəsilə daha dərindən mənimsəyirlər. Bu isə milli kimliyin əsas sütunlarından biridir.

Eyni zamanda, müasir uşaq ədəbiyyatı tənqidi düşünmə və dünyagörüşünün genişlənməsinə kömək edir. Müxtəlif mövzular, fərqli baxış bucaqları uşağın daha açıq fikirli və düşüncəli şəxs kimi yetişməsinə şərait yaradır.

Nəticə etibarilə, bədii kitablar sadəcə əyləncə vasitəsi deyil, həm də uşağın şəxsiyyətinin, dünyagörüşünün və vətənpərvərlik hissinin formalaşmasında güclü tərbiyəvi alətdir.

Uşaq ədəbiyyatının görkəmli siması Qəşəm Nəcəfzadə "Unikal" qəzetinə müsahibəsində bildirib ki, ədəbiyyat bütün dövrlərdə insanların vətənpərvər ruhda böyüməsində, milli-mənlik şüurunun formalaşmasında böyük rol oynayıb:" Azərbaycan xalqının başına gələn faciələr ədəbiyyatda həm nəsrdə, həm də poeziyada ortaya çıxmalıdır ki, gənc nəsil həmin hadisələrdən xəbərdar olsun. Bu barədə bədii filmlər çəkilməlidir. Ümumiyyətlə ciddi təbliğat aparılmalıdır. Uşaq ədəbiyyatında da vətənpərvərliyin təbliği mühüm yer tutur. Xüsusilə qəhrəmanlıq nağıllarına üstünlük verilməlidir. Belə nağıllarla böyüyən uşaqların idealı da məhz həmin nağıl qəhrəmanları olur".



Q. Nəcəfzadə bildirir ki, 44 günlük müharibədə qazandığımız möhtəşəm qələbədən sonra vətənpərvərliyin təbliği istiqamətində işlər ikiqat artırılmalıdır.

"Böyük Vətən Müharibəsindən sonra vətənpərvərlik mövzusunda yazılan əsərlər o zaman sovet xalqlarında ruh yüksəkliyi yaradırdı. Sovetlər birliyini müharibədən qalib çıxaran onun silah-sursatı ilə bərabər, insanların vətənpərvərliyi idi. O zaman bu ruh yüksəkliyinin yaranmasında ədəbiyyat, poeziya böyük rol oynayırdı. Mən qələbədən sonra qalibiyyətə həsr olunmuş ilk kitabımı çap etdim. Hələ torpaqlarımız işğal altında olanda qızım mənə Şuşada aşmış dirəyi göstərib onu qaldırmağımı istəyirdi. Uşaq təxəyyülü ilə elə bilirdi ki, Qarabağ problemi bircə o dirəyin aşmasındadır. Onu qaldırsaq Şuşa azad olunacaq. Uşaqlar siyasəti, torpaqlarımızın işğalında olan maraqlı güclərin siyasi oyunlarını anlamırdılar. Şuşa işğaldan azad olunandan sonra həmin qızımın övladı mənə gəlib Şuşada aşmış dirəyin qaldırıldığını söylədi. O an içimdən bu adda bir şeir yazmaq keçdi. Bu adı böyük şeir toplum olan kitaba qoydum.

"Şuşa qalxıb ayağa" uşaq şeirlər kitabım məhz vətənpərvərlik mövzusundadır. Böyüklər üçün də vətənpərvərliklə bağlı çoxlu şeirlərim var. Çox təəssüf edirəm ki, bizə o şeirləri səsləndirməyə auditoriya təşkil edən yoxdur. Sovet dövründə bunu təbliğat maşınına çevirmişdilər. Böyük şairlərlə məktəblərdə görüş keçirilirdi. Onlar öz yazdıqları şeirləri o görüşlərdə uşaqlara oxuyub sevdirirdilər. Mən arzu edərdim ki, gənc nəslin vətənpərvərlik ruhda böyüməsi üçün belə görüşlər təşkil olunsun. Bunu etmirlərsə ən azı dərsliklərdə belə şeirlərə yer versinlər. Məsələn, mənim vətənpərvərlik ruhu oyadan şeirlərimi dərsliklərə salmırlar. Amma bu mövzuda uşaq şeirlərim sinifdən xaric oxu dərslərinə salınır. Dediyim odur ki, dövlət, Elm və Təhsil Nazirliyi uşaq ədəbiyyatında vətənpərvərlik hissinin təbliği üçün geniş istifadə etməlidir. Bu bir ideoloji xəttə, təbliğat maşınına çevrilməlidir. Çünki, uşaq beyni ağ vərəqdir. Ora nə köçürsən yaddaşda qalır. Biz ora qəhrəmanları, onların igidlik dastanlarını həkk etməliyik ki, sabah həmin nəsil Vətən deyəndə şəksiz-şübhəsiz ayağa qalxsın. Vətəni canından çox sevib onun uğrunda ölümə hazır olsun. Torpaqlarımızın suverenliyini, hər qarışını qoruya bilsin. Qazilərimizin keçdiyi həyat yolu onlar üçün nümunə çəkilməlidir. Uşaq şeirləri, nağılları yazan ədiblərlə birgə qazilər uşaqlarla tez-tez görüşməli, onların şərəfli döyüş yolu yeni şeirlərdə, nağıllarda, hekayələrdə canlanmalıdır. Tariximizi bilmək gənclərimiz üçün çox vacibdir. Yazıçı və şairlər, tarixçilər bu amilə diqqətlə yanaşmalıdırlar. Müstəqilliyini bərpa etmiş dövlətimizin ideologiyasının, həmçinin azərbaycançılıq və yurdsevərlik ideyalarının gənclər arasında təbliğ olunmasına böyük ehtiyac var. Bu işdə telekanalların da üzərinə mühüm vəzifə düşür. Azərbaycançılıq hisslərinə malik olan gənclər yetişdirmək cəmiyyətin bütün sahələrində təbliğ edilməli, hədəfə çevrilməlidir!"

Həmsöhbətimiz deyir ki, gənclərin vətənpərvərlik ruhunda böyüməsi işinin mühüm istiqamətlərindən birini heç şübhəsiz, təhsil müəssisələrindəki təlim-tərbiyə işləri təşkil edir. Təhsilin bütün pillələrində, xüsusən də ümumtəhsil məktəblərində bu tərbiyə işinin həyata keçirilməsi üçün imkanlar genişdir. Təhsil ocaqlarında tədris olunan humanitar fənlər, xüsusən də ədəbiyyat, tarix, o cümlədən hərbi hazırlıq fənlərinin tədrisi təhsil alanları müvafiq biliklərlə təmin etməklə yanaşı, onların milli-mənlik şüurunun formalaşmasına, vətənpərvərlik ruhunda tərbiyəsinə müstəsna təsir göstərir.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

16_27 IYUl-QARA.qxd 4/30/2026 8:35 PM Page 13



# Qəbul imtahanı üçün qeydiyyat bitdi



***Universitet və kolleclərə qəbul üçün qeydiyyat dünən axşam bitib.***

"Unikal" Dövlət İmtahan Mərkəzinə istinadən xəbər verir ki, I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanının 2-ci mərhələsinin 1-ci cəhdində iştirak etmək üçün qeydiyyat 29 aprel saat 23:59-da başa çatıb.

Son məlumata görə, universitet və kolleclər üçün ümumilikdə 135018 abituriyent qeydiyyatdan keçib. 131510 nəfər universitetlər, 121341 nəfər isə kolleclər üçün ərizə verib.

Qeyd edək ki, ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsinin birinci cəhdi II və III ixtisas qrupları üzrə mayın 24-də, I və IV qruplar üzrə isə iyunun 7-də keçiriləcək. III ixtisas qrupu üzrə həm DT, həm də TC altqrupunu seçən abituriyentlər üçün coğrafiya fənni üzrə əlavə imtahan iyunun 7-də keçiriləcək.

# Bu pulları dərhal dəyişdirin!

***Son vaxtlar müxtəlif ticarət və xidmət obyektlərində ödəniş zamanı müştərilərə qalıq pul kimi "skoçlanmış", cırıq və ya zədələnmiş əskinasların verildiyi bildirilir. Bu cür pullar sonradan digər obyektlərdə qəbul edilmir və nəticədə vətəndaşlar onları dəyişmək üçün banklara müraciət etmək məcburiyyətində qalır.***

Əgər bu pullar dövriyyədə problem yaradırsa, niyə ümumiyyətlə müştəriyə təqdim olunur? Cırıq və ya skoçlanmış pullarla bağlı nə edək? Bunu təqdim edən tərəfə etirazı bildirməliyikmi?

"Unikal"ın məlumatına görə, Globalinfo.az-a danışan iqtisadçı Elçin Rəşidov deyib ki, dövriyyədə olan əsginas problem yaradırsa, müştəriyə təqdim olunmamalıdır:

"Belə hallar ümumiyyətlə yaşanmamalıdır, amma təəssüf ki, buna rast gəlinir. Mövcud qaydalara əsasən, müəyyən meyarlara cavab verməyən əsginaslar yararsız hesab olunur. Məsələn, cırığın ölçüsü normadan artıqdırsa, üzərində yapışqan varsa, müəyyən hissələri çatışmırsa, əsginasın oxunması və tanınması çətindirsə, o, dövriyyəyə yararlı sayılmır. Bu cür əsginasları satıcılar özləri dövriyyədən çıxarmalı və banklarda dəyişdirilməlidir. Hazırda bu sahədə tənzimləməni Azərbaycan Mərkəzi Bankı (AMB) həyata keçirir və yararsız əsginasları qəbul edir. Lakin dəyişdirmə prosesi kifayət qədər çətindir və sadələşdirilməsinə ehtiyac var".

İqtisadçı bildirib ki, vətəndaşlar yararsız əsginas əldə etdikdə onu asanlıqla dəyişə bilməlidir: "Bu məqsədlə AMB özəl bankların filial şəbəkəsindən də istifadə etməlidir. Yəni vətəndaşların yaxınlıqdakı bank filialına müraciət edərək əsginası rahat şəkildə dəyişdirməsinə şərait yaratmalıdır. Bu yanaşma dövriyyədə keyfiyyətli əsginasların saxlanmasına, yararsız pulların vaxtında çıxarılmasına və vətəndaşların narahatlığının azalmasına xidmət edər. İnsanlar əmin olar ki, təsadüfən yararsız əsginas aldıqları halda onu asanlıqla dəyişə biləcəklər. Nəticədə pulun istifadəsi daha rahatlaşar. Bu isə ümumilikdə iqtisadi dövriyyəyə müsbət təsir göstərər".

Ekspert qeyd edib ki, vətəndaş kassada pul qəbul edərkən əsginasda problem aşkar edərsə, dərhal etirazını bildirməli, dəyişdirilməsini tələb etməlidir: "Əks halda, həmin məsuliyyəti öz üzərinə götürmüş olur. Mövcud dəyişdirmə proseduru mürəkkəb olduğundan, insanlar çox vaxt bu məsuliyyəti qəbul etmək istəmir. Qeyd etdiyim kimi, proses sadələşdirilərsə və bank filialları vasitəsilə operativ şəkildə həyata keçirilərsə, problem əhəmiyyətli dərəcədə həll olunar".

## ELAN

**Həsənov Nicat Rizvan oğluna məxsus 1008936A nömrəli xidməti iş vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

# Xüsusi Təyinatlı Qüvvələrin yaradılmasından 27 il ötür

***Görünməyən cəbhələrin səssiz qəhrəmanları var - onların adı çox zaman çəkilmir, lakin gördükləri işlərlə tarix yazılır. Azərbaycan Xüsusi Təyinatlı Qüvvələri (XTQ) üçün sədaqət sadəcə söz deyil, həyatın mənasıdır. "Mənim sədaqətim, mənim şərəfimdir" devizi onların hər addımında yaşayır.***

Aprelin 30-u ölkəmizin müdafiə qüvvələri sırasında özünəməxsus yeri olan XTQ-nin yaradılması günüdür.

"Unikal" xəbər verir ki, 1999-cu ildə Ulu Öndər Heydər Əliyevin Fərmanı ilə Azərbaycan Ordusunun ən çevik və yüksək döyüş qabiliyyətinə malik bölmələrindən biri yaradılıb. XTQ-nin formalaşmasında Birinci Qarabağ müharibəsinin iştirakçıları olan zabit və gizirlər fəal iştirak ediblər. Ümummilli Lider Heydər Əliyev tərəfindən vahid komandanlıq altında birləşdirilən Azərbaycan Ordusunun həmin bölmələri Türkiyə Silahlı Qüvvələri və onun XTQ-si ilə sıx əməkdaşlıqla formalaşdırılıb.






## Bu yola yalnız seçilmişlər addım ata bilir

Xüsusi təyinatlı olmaq hər kəsin taleyinə yazılan bir qismət deyil. Bu sıraya hər addım atan deyil, yalnız sınanıb möhkəmlənənlər daxil olurlar. Hər kəs bu zirvəyə qalxa bilməz, bu, yalnız iradəsi ilə seçilənlərin yoludur.

XTQ-nin üzvü olmaq üçün ağır təlimlər, hərbi imtahanlar, iradə nümayişi vacib şərtlərdəndir. Həmin qüvvələrin üzvlərinə əlbəyaxa döyüş, dərin kəşfiyyat, düşmən arxasına keçmə, həyatda qalma, mühəndis, atəş, psixoloji, desant, dalğıc, tibbi, asimmetrik döyüş və sair kimi hazırlıqlar üzrə təlimlər keçirilir.

## Tarixi Zəfərin anonsunu verdilər

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev XTQ-yə yüksək diqqət yetirir. Azərbaycan xüsusi təyinatlıları müxtəlif ölkələrin təlim mərkəzlərində keçirilən kurslarda iştirak edib və dəfələrlə Amerika Birləşmiş Ştatları, Türkiyə və Pakistanda keçirilən yarışlarda fərqləniblər.

Müxtəlif hərbi əməliyyatları uğurla tamamlamış XTQ-nin şəxsi heyəti 2016-cı ilin Aprel döyüşlərində peşəkarlığı ilə sanki dörd il sonra əldə ediləcək tarixi Zəfərin anonsunu veriblər. Vətən müharibəsində isə Azərbaycan hərb tarixinə yeni qəhrəmanlıq səhifələri yazan XTQ mənsubları ən mühüm əməliyyatların, ilk növbədə, Şuşa əməliyyatının keçirilməsində həlledici rol oynayıblar. Peşəkarlıqla bərabər, burada fədakarlıq, ölümün üzərinə şığıma həlledici amillərdəndir. XTQ mənsubları döyüş tapşırıqlarını uğurla yerinə yetirdiklərinə görə dövlətimizin başçısının müvafiq sərəncamları ilə "Azərbaycanın Milli Qəhrəmanı", "Vətən Müharibəsi Qəhrəmanı" fəxri adlarına layiq görülüblər, eləcə də müxtəlif orden və medallarla təltif olunublar.

Azərbaycan XTQ-si dünya müdafiə sənayesinin aparıcı şirkətlərinin istehsalı olan müasir silah, döyüş vasitələri və texnikaya malikdir. Müharibədənsonrakı dövrdə də ordu quruculuğu prosesi yeni reallığa uyğun formalaşdırılmaqda davam edir. İkinci Qarabağ müharibəsində özlərini ən yaxşı cəhətdən göstərən XTQ təkmilləşdirilir, xüsusi təyinatlı yeni qüvvələr yaradılır.

## Olmayan yerdə yol açdılar

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev XTQ-nin yaradılmasının 23-cü ildönümü münasibətilə 2022-ci il aprelin 30-da Müdafiə Nazirliyinin XTQ-sinin "N" saylı hərbi hissəsində olarkən deyib: "Bizim bütün əsas həlledici əməliyyatlarımızda xüsusi təyinatlılar ön sırada idilər. Digər hərbi birləşmələr ilə birlikdə şəhər və kəndlərimizi azad edən xüsusi təyinatlıların rolunu mən xüsusilə vurğulamaq istəyirəm. Uğurlu əməliyyatlardan sonra yolumuz Şuşaya açıldı. Yolumuz deyəndə, o yol yox idi. Uğurlu Hadrut əməliyyatından sonra, - hansı ki, Ermənistanda fərarilərin sayını kəskin artırmışdır, - onlar inanmırdılar ki, biz o istiqamətdə gedəcəyik. Onlar bizi başqa yerlərdən gözləyirdilər. Amma bizim aslanlarımız, igidlərimiz olmayan yerdə yol açdılar, öz əlləri ilə, öz ayaqları ilə, öz sinələri ilə. Dərələrdən, meşələrdən, cığırlardan keçərək istiqamət Şuşaya idi. Mən müharibə zamanı demişdim, Şuşasız bizim işimiz yarımçıq qalacaq. Müharibənin ilk günündən son gününə qədər hədəfimiz Şuşanın, bizim Qarabağın tacı olan əziz şəhərimizin erməni tapdağından azad olunması idi və buna nail olduq, buna siz nail oldunuz, xüsusi təyinatlılar nail oldu. Neçə gün yorulmadan, əlində yüngül silahlarla o dərələrdən, meşələrdən keçərək Şuşaya yaxınlaşdı bizim igidlərimiz...".

## Sədaqət və gücün səssiz nümayişi

Ötən il noyabrın 8-də Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbənin beşinci ildönümünə həsr olunmuş Hərbi parad keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan, Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şərif paradda iştirak ediblər.

XTQ-nin, o cümlədən müxtəlif qoşun növlərinin xüsusi təyinatlılarından ibarət parad heyətləri Azadlıq meydanında qürurla irəliləyirdi. Hər addımda güc və iradə hiss olunurdu. Baxışlarında qətiyyət, duruşlarında şərəf var idi. O keçid yalnız bir yürüş deyildi, sədaqət və gücün səssiz, lakin unudulmaz nümayişi idi.

Xüsusi təyinatlı olmaq sadəcə peşə deyil, bu, həyat yoludur.

16_27 IYUl-QARA.qxd 4/30/2026 8:35 PM Page 14



# Vətən səmasının parlayan ulduzu

***İkinci Qarabağ savaşında son damla qanına qədər yağıya qarşı döyüşüb adını şanlı tariximizə yazan qeyrətli oğullardan biri də 10 noyabr 1994-cü ildə qəhrəmanlar məskəni, polad biləkli qorxmaz mübarizlər diyarı Biləsuvar rayonunun Əsgərabad kəndində anadan olan Fariz Hüseynlidir. Vətən, torpaq sevgisi onu şəhidlik zirvəsinə ucaltdı. Məhz, buna görə də şərəfli ölümü ilə Fariz əbədi olaraq ürəklərə köçdü. Bir evin oğlu bütün Azərbaycanın qürur yerinə çevrildi.***



Həmçinin, qanı bahasına torpağı Vətən edən bu müqəddəs varlığın səpdiyi qəhrəmanlıq toxumları cücərə-cücərə gələn günlərimiz daha da parlaq olacaq. Beləcə, qərinələr ötəcək, nəsillər bir-birini əvəz edəcək, qaldı ki, şəhid Fariz heç vaxt unudulmaz, özündə Vətəninə, xalqına məhəbbət hissini daşımaqla mənən yaşayacaq. Qəhrəmanların bir tarixi olur, yəni, onlar yalnız doğulur ölmürlər.

Uşaqlıqdan vətənpərvər böyüyən Fariz orta məktəbi yaxşı qiymətlərlə bitirib. Hər hansı ali təhsil ocağına girib oxuya bilərdi. Qaldı ki, əzəli yurd yerimiz Qarabağımıza basqın edən yağının cavabını vermək üçün birinci ordu sıralarında xidmət etməyi vacib sayıb. Əsgərlik həyatına cəbhə bölgəsində başlayıb. Hər an ermənі dığaları ilə üz-üzə, göz-gözə dayanmaq çətin olsa da, heç nədən qorxusu olmayıb, öz torpağını qoruduğuna görə bununla qürur duyub. Və hər an Vətəni üçün canından keçməyə hazır olan əsgər yağıdan alacağı qisas gününü gözləyib.

Nümunəvi xidməti tezliklə Farizi zabitlərin, əsgərlərin sevimlisinə çevirib. Fəaliyyəti onun mənəvi cəhətdən zəngin əsl vətəndaş, vətənpərvər əsgər olduğunu sübut edib. Həmişə əsgər yoldaşlarına da bildirib ki, ana dediyimiz Vətəni qorumaq, bu yolda şəhid olmaq bizim müqəddəs borcumuzdur.

Həm də Fariz döyüş meydanında yağıya qalib gəlmək üçün təlimlərə həvəslə qoşulub, cəsurluğu, çevikliyi ona uğur qazandırıb. Öyrəndikləri ilə düşmənə qalib gələcəyinə tam inanıb. Əsgərliyini üzüağ bitirən Fariz yağıdan alacağı öcə görə həyatını orduya bağlayıb.

2020-ci il sentyabrın 27-də başlanan İkinci Qarabağ müharibəsində Fariz birincilər sırasında ön cəbhədə vuruşlara qatılıb. Yer aldığı döyüşçü qrupu tərəfindən Tərtər rayonunun Talış kəndidə erməni dığalarının xeyli sayda texnika və canlı qüvvəsi məhv edilib. Laçın rayonu istiqamətində gedən ölüm-dirim savaşda igid döyüşçü ölümə meydan oxumaqla şəxsi rəşadət göstərib. 3 oktyabrda Füzulidə düşmən hücumunun qarşısını alarkən son nəfəsinə qədər döyüşüb və burada əbədiyyətə qovuşub. 4 oktyabr 2020-ci il tarixində doğma kənd məzarlığında canından artıq sevdiyi torpağın sinəsinə baş qoyub.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatıldığı və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Fariz Hüseynli Ali Baş Komandan İlham Əliyevin sərəncamına əsasən ölümündən sonra “Vətən uğrunda”, “İgidliyə görə”, Laçının, Suqovuşanın azadlığı uğrunda medallarına layiq görülüb.

Bəli, nəsibi əzəmətli, möhtəşəm şəhidlik zirvəsi olan Fariz Hüseynli torpağı qorumağı, onu Vətən etməyə can verməyi bacardı. Məhz buna görə adı əbədi olaraq Vətənlə birgə çəkiləcək.

***Zəfər Orucoğlu,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Milli Kitabxanada “Akademik Tofiq Hacıyev - 90” adlı kitab sərgisi istifadəçilərə təqdim olunub

***1 may 2026-cı il tarixində Milli Kitabxanada görkəmli türkoloq alim, Əməkdar elm xadimi, akademik Tofiq Hacıyevin anadan olmasının 90 illik yubileyinə həsr olunmuş “Akademik Tofiq Hacıyev - 90” adlı ənənəvi kitab sərgisi istifadəçilərə təqdim olunub.***



Sərgidə akademikin türkologiya sahəsindəki iri həcimli araşdırmaları, Azərbaycan ədəbi dilinin tarixi dövrlər üzrə təhlili haqqında, ana dili, nitq mədəniyyətləri, dil normaları, düzgün tələffüz və dilçiliklə bağlı sanballı dərslikləri, fundamental monoqrafiyaları, tərcümələri, elmi-publisistik məqalələrindən ibarət nəşrləri, həyatı və elmi-pedaqoji fəaliyyəti haqqında ədəbiyyatlar, Akademik Tofiq Hacıyevin dilçilik görüşləri, filoloji görüşləri və s. mövzularda elmi tədqiqat işləri nümayiş olunur.

Tofiq İsmayıl oğlu Hacıyev 1936-cı il mayın 1-də Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olub. 1953-1958-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) filologiya fakültəsində ali təhsil alıb. 1962-ci ildə “Azərbaycan dilinin Cəbrayıl şivəsi” mövzusunda namizədlik, 1969-cu ildə “XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili” mövzusunda doktorluq dissertasiyasını müdafiə edib. O, 1972-ci ildə professor elmi adını alıb, 2007-ci ildə AMEA-nın müxbir üzvü, 2014-cü ildə isə həqiqi üzvü seçilib.

Akademik Tofiq Hacıyevin elmi yaradıcılığı Azərbaycan dilçiliyi, ədəbi dil tarixi, dialektologiya, üslubiyyat və ümumtürkoloji tədqiqatların geniş spektrini əhatə edir. “Satira dili” (1975), “Azərbaycan ədəbi dili tarixi (təşəkkül dövrü)” (1976), “XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili” (1977), “Sabir: qaynaqlar və sələflər” (1980), “Molla Nəsrəddinin dili və üslubu” (1983), “Azərbaycan dili tarixi” (K.Vəliyevlə birgə, 1983), “Azərbaycan ədəbi dili tarixi” (II hissə, 1987), “Azərbaycan dili” (Z.Budaqova ilə birgə, 1993), Dədə Qorqud: dilimiz, düşüncəmiz” (1999), “Azərbaycan ədəbi dilinin tarixi: 2 cilddə” (2012) və s. sanballı dərsliklər və fundamental monoqrafiyalar hazırlayıb.

Tofiq Hacıyev tərcüməçilik sahəsində də məhsuldar fəaliyyət göstərmiş, Murad Adcinin “Qıpçaq çölünün yovşanı”, “Dünya və türk: munis tariximiz”, B.Serebrennikov və N.Hacıyevanın “Türk dillərinin müqayisəli qrammatikası”, eləcə də İbn Mühənnanın “Hilyətül-insan və həlbətül-lisan” əsərlərini Azərbaycan dilinə çevirib.

Görkəmli dilçi alim və türkoloqun elmi və ictimai fəaliyyəti yüksək qiymətləndirilib. O, 1999-cu ildə “Əməkdar elm xadimi” fəxri adına layiq görülüb, 30 oktyabr 2009-cu ildə Azərbaycan Respublikasının “Şöhrət” ordeni ilə təltif edilib.

## “AzInTelecom” tərəfindən 68 minə yaxın IMEI kod bloklanıb

***AZCON Holding şirkətlərindən olan “AzInTelecom” MMC Azərbaycana gətirilən mobil cihazların surəti köçürülmüş IMEI kodlarla qeydiyyatdan keçirilməsinə qarşı mübarizə tədbirlərini davam etdirir.***

”Unikal” xəbər verir ki, görülən mübarizə tədbirləri çərçivəsində bu günədək 67 705 IMEI koda “klon” statusu verilərək blok edilib. Həmin IMEI kodlar son üç ayda 1 612 873 ədəd mobil nömrəyə aid abunəçi kimliyi ilə şəbəkədə görünüb. Bu IMEI kodlarla 1 540 604 dəfə şəbəkəyə qoşulma cəhdinə “AzInTelecom”a məxsus Mobil Cihazların Qeydiyyat Sistemi (MCQS) tərəfindən imtina cavabı verilib.

“AzInTelecom” MMC mütəmadi şəkildə monitorinq edərək surətinin köçürülməsi şübhəsi olan IMEI kodlar üzrə ətraflı araşdırma aparır. Surəti köçürülmüş IMEI kodlara “klon” statusu verilərək istifadəsi məhdudlaşdırılır.

Qeyd edək ki, Nazirlər Kabinetinin qərarı ilə təsdiq edilmiş “Mobil cihazların qeydiyyatının aparılması Qaydası”na əsasən, xaricdən Azərbaycana gətirilən mobil cihazların ölkə telekommunikasiya şəbəkəsində istifadə olunması üçün onların IMEI kodları 30 gün ərzində qeydiyyatdan keçirilməlidir. Mobil cihazların IMEI kodlarının orjinallığını mygov portalında yoxlamaq mümkündür.

## 2025-ci il üzrə Yevlax şəhərinin əhalisi haqqında statistika

***Yevlax rayonunun ərazisi 1465,4 min kvadrat kilometrdir. Yevlax rayon əhalisinin sayı 2026-cı ilin yanvar ayının 1-i vəziyyətinə 130501 nəfər olmuşdur.***




Əhalinin ümumi sayının 56,1 faizini şəhər, 43,9 faizini kənd sakinləri, 48,7 faizini kişilər, 51,3 faizini isə qadınlar təşkil edir. Bir kvadrat kilometrə düşən əhalinin sayı 89 nəfər olmuşdur.

2025-ci ildə Ədliyyə Nazirliyinin Yevlax rayon qeydiyyat şöbəsi tərəfindən 1271 doğulan körpə qeydə alınmış və 2024-cü il ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 13,1-dən 9,7-yə düşmüşdür.

2025-ci ildə Yevlax rayonunda 783 ölüm halı qeydə alınmış və 2024-cü il ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 6,5-dən 6,0-a düşmüşdür.

2025-ci ildə qeydiyyat şöbələri tərəfindən 455 nikah və 227 boşanma halları qeydə alınmış və 2024-cü il ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı azalaraq 4,5-dən 3,5-ə , boşanmaların sayı isə 2,2-dən 1,7-ə düşmüşdür.

2025-ci ildə Daxili İşlər Nazirliyinin Yevlax rayon Polis şöbəsinin qeydiyyat və şəxsiyyət vəsiqəsi qrupu tərəfindən verilən məlumata əsasən daimi yaşayış üçün rayona 10 nəfər gələn, rayondan isə 15 nəfər gedən qeydə alınmış və miqrasiya saldosu mənfi 5-ə bərabər olmuşdur.

***Yevlax Şəhər Statistika İdarəsinin aparıcı məsləhətçisi Şamxal Mirzəyev***

16_27 IYUl-QARA.qxd 4/30/2026 8:35 PM Page 15



# İsrail Qəzzaya gedən donanmanı ələ keçirdi



***İsrail Müdafiə Qüvvələri (İMQ) "Qlobal Sumud Donanması"nın bir hissəsi olaraq Qəzza zolağına doğru gedən gəmiləri Krit sahillərində ələ keçirməyə başlayıb.***

"Unikal" xəbər verir ki, bu barədə "Ynet" nəşri məlumat yayıb.

Nəşr aydınlaşdırıb ki, müsadirə zamanı heç bir insident və ya zorakılıq aktı yoxdur. Bildirilir ki, donanmada 100-ə yaxın fəal var.

# Bu dəfə Hörmüz boğazının adını dəyişdi



***ABŞ prezidenti Donald Tramp Hörmüz boğazının adını dəyişərək "Tramp boğazı" adlandırıb.***

"Unikal" xəbər verir ki, Amerika lideri bu barədə "Truth Social" sosial şəbəkəsində paylaşım edib.

Paylaşımda Fars və Oman körfəzinin xəritəsi yer alıb, onların arasında yerləşən "Tramp boğazı"ndan tankerlərin keçdiyi əks olunub.

Amerika lideri əvvəllər Hörmüz boğazına onun adının verilməsini ciddi şəkildə təklif etmişdi, lakin təklifi rədd edilmişdi. Yerli mətbuata verdiyi müsahibədə o, boğazın adının onun şərəfinə dəyişdirilməsi ideyasının dəstəklənməməsindən təəssüfləndiyini bildirmişdi.

*Gülayə Mecid*

# ABŞ İranla əlaqəli 41 tankeri ələ keçirib

***ABŞ Hərbi Dəniz Qüvvələri İranla əlaqəli 41 tankeri ələ keçirib.***

"Unikal" xəbər verir ki, bu barədə ABŞ Mərkəzi Komandanlığının (CENTCOM) rəhbəri admiral Bred Kuper məlumat yayıb.

Admiral qeyd edib ki, "İran hökuməti hazırda 41 tankerlə daşınan 69 milyon barel nefti sata bilmir. Bu, İran rəhbərliyinə 6 milyard dollardan çox bahabaşa gəlir".

*Gülayə Mecid*

# "Ermənilərin Bakıdan qayıtması məsələsini müzakirə etmirik" - Paşinyan

***"Biz Azərbaycanla ermənilərin nə Qarabağdan, nə də Bakıdan qayıtması məsələsini müzakirə etmirik".***

"Unikal" xəbər verir ki, bunu Ermənistanın Baş naziri Nikol Paşinyan brifinq zamanı deyib.

"Bildiyiniz kimi, biz Azərbaycanla Qarabağ ermənilərinin və ya Bakı ermənilərinin geri qayıtması məsələsini müzakirə etməmişik. Çünki hər iki istiqamətdə aparılan açıq-aydın müzakirələr mövcud siyasi vəziyyətə təxribatçı təsir göstərir və biri digərini alovlandıra bilər. Hər iki məsələ eyni qüvvələr tərəfindən siyasi gündəmdə saxlanılır. Əvvəlcə bir məsələni qabartmağa başlayırlar, sonra bu onlar üçün kifayət qədər təsir göstərmir, ikinci məsələyə keçirlər. Bu, ucuz daxili siyasi spekulyasiyadır, başqa bir şey deyil. Demək istəyirəm ki, bu mövzu haqqında danışan, amma niyə və hansı məqsədlə danışdıqlarını başa düşməyən insanlar var. Biz heç vaxt belə bir məsələni müzakirə etməmişik", - deyə Paşinyan qeyd edib.

*Ağarza Elçinoğlu*

# "İran nüvə proqramını milli sərvəti hesab edir" - Xamenei

***"Fars körfəzində ən böyük sahil xəttinə malik olan İran xalqı onun müstəqilliyi uğrunda xaricilərə və təcavüzkarlara qarşı ən böyük qurbanlar verib".***

"Unikal" xəbər verir ki, bunu İslam İnqilabının Lideri Ayətullah Seyid Müctəba Hüseyni Xamenei Fars Körfəzi Milli Günü münasibətilə yaydığı bəyanatda deyib.



Onun sözlərinə görə, Amerikanın məğlubiyyətindən sonra, Fars körfəzi və Hörmüz boğazı üçün yeni bir fəsil ortaya çıxıb: "Fars körfəzi bölgəsinin parlaq gələcəyi Amerikasız və xalqlarının tərəqqisinə, rahatlığına və rifahına xidmət edəcək bir gələcək olacaq. Biz Fars körfəzi və Oman dənizi sularında qonşularımızla bir taleyi bölüşürük və minlərlə kilometr uzaqlıqdan acgözlüklə pislik edən əcnəbilərin orada yalnız suların dərinliyində yerləri var. Müqavimətin tədbirləri, siyasətləri və güclü İran strategiyasının kölgəsində əldə edilən bu qələbə zənciri bölgədə və dünyada yeni bir nizamın başlanğıcı olacaq.

Bu gün İran xalqının möcüzəvi oyanışı yalnız sionizm və qaniçən Amerikaya qarşı mübarizədə canlarını fəda edən on milyonlarla insanla məhdudlaşmır. Ölkə daxilində və xaricində doxsan milyon cəsur və nəcib İran vətəndaşı nano və biotexnologiyadan nüvə və raket texnologiyalarına qədər bütün şəxsi, mənəvi, insani, elmi, sənaye resurslarını və qabaqcıl texnologiyalarını milli sərvətləri hesab edir və onları dəniz, quru və hava sərhədləri kimi qoruyacaq.

İran Fars körfəzi bölgəsini təhlükəsiz saxlayacaq və düşmənin bu su yolundan sui-istifadəsini aradan qaldıracaq. Hörmüz boğazının yeni idarəçiliyinin hüquqi qaydaları və tətbiqi bölgənin bütün xalqlarının xeyrinə rahatlıq və tərəqqi gətirəcək, iqtisadi faydaları isə xalqın qəlbini sevindirəcək".

*Ağarza Elçinoğlu*

# İndiyədək nə bir raket, nə də dron düşüb - Kiyevin gizli saxladığı ərazisi

***Rusiya və Ukrayna arasında müharibə hələ də davam edir (24.02.2022 - indiyədək, - red.). İllərdir davam edən münaqişədə Ukraynanın hər bir ərazisi demək olar ki, hər gün bombardman edilir, PUA və raket hücumuna məruz qalır. Bunun fonunda paytaxt Kiyevin cənubunda yerləşən elit yaşayış məntəqəsi Konça-Zaspa diqqət çəkib.***

"Unikal" Ukrayna mətbuatına istinadən xəbər verir ki, sözügedən əraziyə indiyədək nə bir raket, nə də dron düşüb.

Maraqlısı budur ki, digər ərazilər Rusiyanın hədəfi olarkən, məhz bu bölgə Ukrayna hakimiyyəti tərəfindən qorunur. Məlumata görə, həmin ərazidə "Ukraynanın siyasi və iqtisadi elitası yaşayır", eyni zamanda yüksək vəzifəli şəxslərin iqamətgahları yerləşir.

"Konça-Zaspa uzun illərdir Kiyevin ən prestijli ətraf qəsəbələrindən biri hesab olunur. Burada həm özəl villalar, həm də dövlət obyektləri yerləşir. Onların arasında "Yuşşenkonun bağ evi" kimi tanınan dövlət iqamətgahı da var. Bu kompleks təxminən 4 min kvadratmetr sahəni əhatə edir və özündə kinoteatr, solyari, masaj otağı və bilyard zalı kimi müxtəlif infrastrukturu birləşdirir.

Qış aylarında baş verən elektrik kəsintiləri və kommunal problemlər fonunda Ukraynanın onlayn icmalarında paytaxtın müxtəlif ərazilərindəki həyat şəraiti arasındakı fərqlər daha çox müzakirə olunmağa başlayıb. Sosial şəbəkə istifadəçiləri Konça-Zaspadakı bəzi villalar-



da işıqların yandığını, paytaxtın digər hissələrinin isə qaranlığa qərq olduğunu iddia edən görüntülər paylaşıblar", - deyə mətbuatda qeyd olunub.

Rəsmi Kiyev mediada yayımlanan xəbərlərə münasibət bildirməyib.

*Gülayə Mecid*

# "İrana qarşı blokada uğursuzluğa məhkumdur" - Pezeşkian

***"Irana qarşı blokada və dəniz məhdudiyyətləri tətbiq etmək cəhdi uğursuzluğa məhkumdur".***

"Unikal" xəbər verir ki, bunu İran İslam Respublikasının Prezidenti Məsud Pezeşkian deyib.

O, Fars Körfəzinin Milli Günü münasibətilə ünvanladığı mesajda bu strateji su yolunu iranlıların milli kimliyinin ayrılmaz hissəsi və İran İslam Respublikasının suverenliyinin simvolu hesab edib: "Bu il biz Fars Körfəzi Milli Gününü elə bir şəraitdə qeyd edirik ki, Ramazan müharibəsi (40 günlük müharibə - red.) zamanı bu bölgənin, xüsusən də Hörmüz boğazının əhəmiyyəti dünyaya bir daha aydın oldu. Ölkənin donanmasının şücaəti göstərdi ki, bu həyati əhəmiyyətli keçid enerji ötürülməsindəki strateji funksiyasına əlavə olaraq, milli suverenliyin simvoludur və İranın regional və qlobal təhlükəsizliyin təmin edilməsindəki danılmaz rolunu əks etdirir.

Bu gün düşmənlərimiz yanaşmalarını dəyişdiriblər. Onlar təzyiq sahəsini iqtisadi və dəniz sahələrinə yönəldiblər. "Dəniz blokadası" strategiyası və dəniz ticarət yollarında məhdudiyyətlər yaratmaqla İran hökumətinə və xalqına yeni bir təzyiq vasitəsini gündəmə gətiriblər. Lakin düşmənlərimiz bilməlidirlər ki, Fars körfəzi birtərəfli xarici iradələrin tətbiqi üçün bir arena deyil, beynəlxalq qarşılıqlı əlaqələr sisteminin bir hissəsidir və onun təhlükəsizliyi yalnız kollektiv əməkdaşlıq və sahil ölkələrinin suverenliyinə qarşılıqlı hörmət işığında məna kəsb edir. Buna uyğun olaraq, dəniz blokadası və ona məhdudiyyət qoymaq üçün edilən hər hansı bir cəhd beynəlxalq hüquqa zidd və region xalqlarının maraqlarına, qlobal sülh və sabitliyə təhdiddir və uğursuzluğa məhkumdur".

*Ağarza Elçinoğlu*

16_27 IYUl-QARA.qxd 4/30/2026 8:35 PM Page 16



# ÇL-də həftənin oyunçusu adına namizədlər

***UEFA Çempionlar Liqasında yarımfinal mərhələsinin ilk oyunlarına yekun vurulub.***

"Unikal" xəbər verir ki, matçlardan sonra həftənin futbolçusu adına namizədlər açıqlanıb.

Bu ada PSJ-dən Usman Dembele və "Atletiko"dan Antuan Qrizmann iddia edir.

Parislilərin hücumçusu "Bavariya"ya qalib gəldikləri oyunda (5:4) iki qol vurub və bir məhsuldar ötürmə edib.

Qalib UEFA-nın saytında keçirilən sorğu nəticəsində müəyyənləşəcək.



# Köhnə dostlar düşmən oldu - Türk futbolçu Ronaldo ilə mübahisə etdi

***Səudiyyə Ərəbistanı Liqasının 30-cu turunun "Əl-Nəsr" - "Əl-Əhli" görüşü (2:0) qalmaqalla yadda qalıb.***



"Unikal" xəbər verir ki, qonaqların türk futbolçusu Merih Demiral matçdan sonra "Yuventus"da eyni komandada oynadığı Kriştiano Ronaldo ilə mübahisə edib, ona sərt etirazını bildirib. Digər rəqib futbolçu Kinqsli Komana isə hücum çəkib.

Buna səbəb isə fransalı vingerin oyunun gedişində Merihi zədələməsidir. Daha sonra Komana hücum çəkib. Digər futbolçular aranı sakitləşdirə bilib.

Açıqlama verən Merih hakimlərin "Əl-Nəsr"ə kömək etdiyini bildirib: "Bütün hakimlər dəli olub. Ayağıma baxın və görün rəqib məni nə hala salıb. O, az qala ayağımı sındıracaqdı. Hakimlər "Əl-Nəsr"in qalib gəlməsinə kömək edirlər. Allaha and olsun, bu, biabırçılıqdır!".

# "Kimsə "Qarabağ"da ehtiyatda qalmayıb, "Şəfa"da oynamaq istəsə..."

***"Neftçi" həmişə "Neftçi"dir, adı var. Nə olur olsun, bu klub həmişə futbolda Azərbaycanın döyünən ürəyi olub. "Qarabağ" da mənə doğmadır, oranın çörəyini yemişəm".***

Bu sözləri QOL.az-a açıqlamasında Azərbaycan millisinin sabiq futbolçusu Əfran İsamyılov deyib.

Misli Premyer Liqasının 21-ci turundan təxirə salınmış və bu gün keçiriləcək "Neftçi" - "Qarabağ" matçı ilə bağlı danışan veteran futbolçu çox maraqlı oyun gözlədiyini bildirib: "Böyük oyun olacaq. "Neftçi" son aylar yaxşı formadadır. Ötən oyun "Neftçi" "Qarabağ"la görüşdə ağır məğlubiyyətlə (1:5) üzləşsə də, bu dəfə fərqli olacağını düşünürəm. "Neftçi" o matçın əvəzini çıxmağa çalışacaq. Onlara çox vacib 3 xal lazımdır. Mütləq xal qazanmağa çalışacaqlar. Eləcə də "Qarabağ" üçün çox vacib görüşdür. Ona görə də çox maraqlı



oyunun olacağını gözləyirəm".

Hazırda "Araz-Naxçıvan"da köməkçi məşqçi kimi çalışan Əfran İsmayılov adının tez-tez 1-ci liqa təmsilçisi "Şəfa" ilə birgə çəkilməsinə də aydınlıq gətirib. O, sözügedən klubda hər hansı bir vəzifəni tutmadığını bildirib: "Şəfa" mənim dostlarımın klubudur. Məndən xahiş ediblər ki, onlara kömək edim. Mən də çalışıram ki, futbol biliklərimdən yararlanıb əlimdən gələn köməyi edim. Sağ olsunlar, Azərbaycan futboluna dəstəkdirlər. Yeni klubdur, Premyer Liqaya çıxmağa əsas namizədlərdəndirlər. Orda heç bir rəsmi işim yoxdur. Ancaq dotlarıma kömək edirəm".

Ə.İsmayılov "Qarabağ"dan bəzi yerli futbolçuları "Şəfa"ya gətirmək istəməsi, onlarla danışıq aparması ilə bağlı yayılan xəbərlərə də münasibət bildirib: "Klub bir futbolçu ilə danışıq aparmayıb. Çünki çempionluq rəsmiləşdirilməyib. Bu mövsümün sonuna danışmaq olar. Dediyim kimi, o klubu çalışdıranlar doğmalarımdır, məsləhət biləcəklərsə, kömək edəcəm.

"Qarabağ" futbolçuları ilə bağlı belə bir şey yoxdur. Amma gələcəkdə hansısa futbolçu ehtiyatda qalmaq istəməyib, "Şəfa"da oynamaq fikrində olsa, təbii ki, mən də kömək edəcəm. İndidən isə belə söhbət ola bilməz. Çünki həm Premyer Liqa, həm də 1-ci liqada gərgin vəziyyətdir".

# Azərbaycan millisi uduzdu

***Bakıda təlim-məşq toplanışında olan çimərlik futbolu üzrə Azərbaycan milli komandası ilk yoldaşlıq oyununu keçirib.***

"Unikal" xəbər verir ki, yığma Belarusla qarşılaşıb. Su İdmanı Sarayında təşkil olunan görüş qonaq komandanın 3:1 hesablı qələbəsi ilə yekunlaşıb.

Millimizin heyətində qolu Ramil Əliyev vurub.

# Nəriman oynadı, komandası 1/4 finala yüksəldi

***Azərbaycan millisinin hücumçusu Nəriman Axundzadənin çıxış etdiyi "Kolumbus Kru" ABŞ Kubokunda 1/8 final oyununu keçirib.***

"Unikal" xəbər verir ki, komanda I liqa təmsilçisi "One Knoxvill" ilə qarşılaşıb. Oyun "Kolumbus Kru"nun böyükhesablı qələbəsi ilə başa çatıb - 4:1.

Nəriman oyuna start heyətdə başlayıb və sona qədər meydanda qalıb.

"Kolumbus Kru" bu qələbə ilə 1/4 finala yüksəlib.

# Azərbaycanın U-17 millisi Pakistan yığmasına qalib gəldi

***Azərbaycanın 17 yaşadək futbolçulardan ibarət milli komandası UEFA İnkişaf Turnirində son oyuna çıxıb.***

"Unikal" xəbər verir ki, yığma üçüncü matçında Pakistanın müvafiq yaş qrupundan ibarət komandası ilə qarşılaşıb. Qazaxıstanın Çimkənd şəhərində yerləşən "Namys" stadionunda keçirilən görüş millimizin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb. Komandanın heyətində qalibiyyət qolunu 77-ci dəqiqədə Nazim Əliyev vurub.

Bununla da, Aqil Nəbiyevin yetirmələri 4 komandanın iştirakı ilə baş tutan turniri 5 xalla tamamlayıb.

U-17 daha əvvəl Rusiya (0:5) və Qazaxıstan (1:1. Penaltilərlə 4:2) seçmələri ilə qarşılaşıb.



# 40 yaşlı Eşli Yanq son oyununa çıxır

***İngiltərə millisinin sabiq futbolçusu Eşliq Yanq karyerasını başa vurur.***



QOL.az xəbər verir ki, "İpsviç"də çıxış edən 40 yaşlı müdafiəçisi bu barədə sosial şəbəkə hesabında yazıb.

O, mayın 2-də futbolçu karyerasının son oyununa çıxacağını açıqlayıb: "Bu, yalnız uşaq vaxtı arzuladığım bir səyahət idi. Amma bu xəyalın bir sonu olmalıdır və şənbə günü peşəkar karyeramın son oyunu olacaq... ". "İpsviç" mayın 2-də Çempionşipin 46-cı turunda QPR ilə üz-üzə gələcək.

Qeyd edək ki, İngiltərə millisində 39 oyun keçirən, 7 qol vuran Eşli Yanq "Mançester Yunayted", "Aston Villa", "Everton", "Uotford" və "İnter" klublarında çıxış edib.

# Həmin qapıçıya ağır cəza verildi



***İspaniya İkinci Divizionunda oynayan "Real Zaraqoza"nın qapıçısı Esteban Andrada "Hueska" (1:0) ilə oyunda rəqibinə yumruq vurduğuna görə cəzalandırılıb.***

"Unikal" xəbər verir ki, bu barədə İspaniya Futbol Federasiyasının (RFEF) İntizam Komitəsi qərar qəbul edib. Qurum argentinalı qapıçını matçın son dəqiqələrində meydanın mərkəzinə qaçaraq Xorxe Pulidonun üzünə yumruq vurduğuna görə 13 oyunluq cəza verib.

Mövsümün sonunda müqaviləsi başa çatacaq 35 yaşlı qolkiper cəzası və müqaviləsinin uzadılmaması səbəbindən bir daha "Real Zaraqoza" formasını geyinə bilməyəcək.